## Blinken: "Müttəfiqimiz Türkiyəyə ilkin yardımımızı davam etdiririk"



**Amerika Birləşmiş Ştatları Dövlət Departamenti Türkiyə və Suriyada baş verən zəlzələdə ölənlərlə bağlı başsağlığı verib.**

APA xəbər verir ki, bu barədə ABŞ dövlət katibi Entoni Blenken "Twitter" hesabında paylaşım edib.

"ABŞ bugünkü zəlzələlər nəticəsində Türkiyə və Suriyada baş verən faciəvi insan itkilərinə görə dərin hüznlə başsağlığı verir. Müttəfiqimiz Türkiyəyə ilkin yardımımızı davam etdiririk. Biz birbaşa Suriya xalqına yardım etməyə hazırıq", - deyə Blinken bildirib.

## Türkiyədə axtarış-xilasetmə işlərinə "Bayraktar AKINCI"lar da qoşulub




**Zəlzələdə axtarış-xilasetmə işlərinə komando birliklərimiz də daxil olmaqla ümumilikdə 3 500 şəxsi heyət qatılıb.**

Bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar bildirib.

"A400m təyyarələri daxil olmaqla 17 təyyarə yardım uçuşları həyata keçirilir. 2 "Bayraktar AKINCI" da prosesə qoşulub", - nazir qeyd edib.



## Bakıya qar yağacaq

### Temperatur 5-8 dərəcə aşağı enəcək

**Bakıda və Abşeron yarımadasında fevralın 7-si günün ikinci yarısından 10-dək güclü şimal-qərb küləyi əsəcək. Fevralın 10-da külək mülayimləşəcək.**

Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, fevralın 8-də havanın tutqun, axşama doğru yağıntılı olacağı, gecə sulu qara keçəcəyi, 9-da fasilələrlə sulu qar, qar yağacağı gözlənilir.

Havanın temperaturunun ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcəyi, 9-10-da gecə və səhər saatlarında 1-3° şaxta olacağı gözlənilir.

Fevralın 7-də gecə saatlarından başlayaraq respublikanın əvvəlcə qərb rayonlarında, günün ikinci yarısında şimal rayonlarında, 8-dən isə əksər rayonlarda yağıntılı olacağı, fasilələrlə sulu qar, qar yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda yağıntıların intensivləşəcəyi ehtimalı var. Fevralın 10-da yağıntılar tədricən zəifləyəcək.

Şimal-qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 8-10° aşağı enəcək.

Fevralın 11-dək yollar buz bağlayacaq.

№ 22 (5783), 2023-cü il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 fevral 2023-cü il (çərşənbə axşamı)

# Türkiyədə dəhşətli zəlzələ

## NATO və Aİ üzvü olan 45 ölkədən yardım təklif olunub







**Türkiyənin cənub-şərqində 7.5 bal gücündə dəhşətli zəlzələ baş verib. Episentri Kahramanmaraş vilayəti olan zəlzələ Qaziantep şəhəri də daxil olmaqla 10 əyalətdə ciddi dağıntılara, ölümlərə yol açıb. 3 minə yaxın binanın tamamilə uçduğu deyilir. Həyatını itirənlərin və yaralıların sayı durmadan artmaqdadır. Son məlumata görə, zəlzələdə ölənlərin sayı 1651-ə çatıb, 11 119 nəfər yaralanıb. Ölkədə fövqəladə vəziyyət elan edilib.**

Türkiyə rəsmiləri 4-cü dərəcə siqnal verərək, beynəlxalq yardımı qəbul etməyə hazır olduqlarını bildiriblər. Yeraltı təkanlar bütün regionda - Suriya, Fələstin, Kipr və Livanda da hiss olunub. Türkiyə daxili işlər naziri Süleyman Soylunun sözlərinə görə, Türkiyənin on şəhəri zərər çəkib. Onların arasında Adana, Adıyaman, Qaziantep, Diyarbəkir, Kilis, Kahramanmaraş, Malatya, Osmaniyə, Hatay var.

(səh.3)



## Türkiyədə 7 günlük ümummilli matəm elan edilib

**Türkiyədə güclü zəlzələ ilə əlaqədar 7 günlük ümummilli matəm elan edilib.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviter hesabında yazıb.

"2023-cü il fevralın 6-da ölkəmizdə baş vermiş zəlzələlərlə əlaqədar 7 günlük ümummilli matəm elan edilib. Bayrağımız 12 fevral 2023-cü il bazar günü, bütün ölkəmizdə və xarici nümayəndəliklərdə gün batana qədər yarıya qədər endiriləcək", - Türkiyə Prezidenti qeyd edib.

*Qeyd edək ki, dünən gecə saatlarında Türkiyədə baş verən güclü zəlzələ nəticəsində ölənlərin sayı 1651-ə, yaralıların sayı isə 11 119-a çatıb. Təbii fəlakət nəticəsində 3471 bina dağılıb. Kahramanmaraş vilayətində 7,7 və 7,6 bal gücündə iki zəlzələ baş verib.*

## Hikmət Hacıyev azad edilmiş ərazilərə səfər edən beynəlxalq ziyarətçilərlə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev işğaldan azad edilmiş ərazilərə səfər edən beynəlxalq ziyarətçilərlə görüşüb.**

Bu barədə Hikmət Hacıyev tviterdə paylaşım edib.

"Təbiətin gözəlliyi, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurdakı yenidənqurma işlərinin miqyası beynəlxalq ziyarətçiləri heyran edib", - Hikmət Hacıyev qeyd edib.

# Zəlzələ həyəcanı, köhnə binaların taleyi gündəmdədir

### Memar Cahid Həsənov: "Bakıda göydələnlər yox, sovetdən qalma "Xuruşovka" və "Stalinka"lar daha risklidir"



**Dünyanın zəlzələ ocaqlarında aktivlik müşahidə edilir. Xüsusən də bizə yaxın olan region ölkələrində yeraltı təkanların sayı və gücü artıb.**

İrandakı 4.5 bal gücündəki zəlzələdən sonra qardaş Türkiyə, Suriyada bir-birinin ardınca zəlzələlər baş verir. Türkiyədə 7.4 bal gücündəki zəlzələ binalarda və yaşayış obyektlərində dağıntılarla nəticələnib. Yayılan məlumatlarda əsasən köhnə binaların uçduğu qeyd olunub.

*Qeyd edək ki, bu qədər güclü olmasa da ölkəmizdə zaman-zaman güclü və zəif zəlzələlər olur.*

(səh.5)



## Xankəndidən maraqlı faktlar gəlir

### Artıq orada yaşamaq istəmirlər, dron çəkilişlərində insanların azaldığını görürük

**Dünən Şuşadan keçən Xankəndi-Laçın yolunda Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus 6 avtomobilin hərəkət etməsinə şərait yaradılıb. Belə ki, həmin minik avtomobilləri Xankəndidən Laçın istiqamətinə keçid edib.**

Bu, bir daha göstərir ki, humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyət yoxdur.

(səh.4)

## Ölən yoxdur

### 3 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 5 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 828 085 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 817 816 nəfər müalicə olunaraq sağalıb, 10 096 nəfər vəfat edib, aktiv xəstə sayı 173 nəfərdir.

*Ölkədə son sutka ərzində 619, hazırkı dövrədək isə 7 496 659 test aparılıb.*

## Məhkəmə Saakaşvilinin həbsdə qalmasına qərar verib



**Tbilisi Şəhər Məhkəməsi Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin cəzasının təxirə salınması və ya azad edilməsi ilə bağlı vəsatəti təmin etməyib.**

APA-nın Tbilisi müxbiri xəbər verir ki, dünən təxminən 2 ay davam edən məhkəmə dinləmələrinin sonuncu iclası keçirilib.

Hakim Giorgi Arevadze Mixeil Saakaşvilinin həbsdə saxlanılmasına qərar verib.

Mixeil Saakaşvili iclasdan sonra etdiyi "Facebook" paylaşımında məhkəmənin qərarını özünün "ölüm hökmü" adlandırıb və ölümcül xəstəliklərlə həbsdə saxlanılacağını qeyd edib.



## Azərbaycanda güclü zəlzələ gözlənilmir

### Qurban Yetirmişli: "Binalar tikiləndə mütləq seysmoloji tədqiqatlar aparılmalıdır"

(səh.3)



## Azərbaycan tərəfi dəqiq bilir

### İran müharibəyə cəlb edilmək üzrədir, savaşda qalib gəlməsi isə real deyil

(səh.2)



# İran polisi terror aktına müdaxilə etməyib

## Bütün bunlar hadisənin əvvəlcədən planlaşdırılmış olduğunu ehtimal etməyə əsas verir

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə dünən brifinq keçirib. XİN sözçüsü bir müddət qabaq Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktının təfərrüatlarından danışıb. A.Hacızadə bildirib ki, terror aktı baş verərkən İran polisinin avtomobili səfirliyin yanına gəlsə də, sonra ərazidən uzaqlaşıb.**

Onun sözlərinə görə, terrorçu cinayəti törətməzdən əvvəl avtomobili ilə iki dəfə səfirliyin qarşısından keçib: ”08:34-də İran polisinə məxsus nəqliyyat vasitəsi səfirliyin yanına gəlsə də, giriş qapısının yanındakı polis əməkdaşı ilə bir neçə saniyəlik söhbətdən sonra ərazidən uzaqlaşıb. Terrorçu 4 dəqiqə ərzində, yəni 08:36-ya qədər səfirliyin bir əməkdaşını qətlə yetirib, iki əməkdaşını yaralanıb”. Ayxan Hacızadə Vasif Tağıyevin terrorçunun əlindən avtomatı aldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, lakin bu dəfə terrorçu üzərində daşıdığı tapança ilə Vasif Tağıyevi çənəsindən yaralayıb.

**“Terrorçu diplomatların ailə üzvlərinin yaşadıqları mənzillərin pəncərələrinə davamlı atəş açıb”**

*Ayxan Hacızadə bildirib ki, giriş qapısındakı İran polisinin əməkdaşı nəinki hadisəyə müdaxilə edib, hətta ərazidən uzaqlaşıb.* Onun sözlərinə görə, terrorçu təhqiramiz ifadələr işlədərək səfirliyin binasında diplomatların ailə üzvlərinin yaşadıqları mənzillərin pəncərələrinə davamlı atəş açıb, özü ilə gətirdiyi yanar maddə ilə səfirliyə məxsus nəqliyyat vasitəsinin təkərlərini iki dəfə alışdırıb: ”İranda səfirliyimizə silahlı hücum edən terrorçu saxlanılarkən onunla cinayətkar kimi rəftar edilməyib. İran polisinin terror aktına müdaxilə etməməsi hadisənin əvvəlcədən planlaşdırılmış olduğunu ehtimal etməyə əsas verir. Son günlər sosial şəbəkələrdə yayılmış məlumatlarda terror hadisəsinin xronologiyası ilə əlaqədar bir sıra qeyri-dəqiq şərhlərə yol verilir. Buna əsas səbəb videogörüntülərin xronometraja səhv istinadların olmasıdır. Bununla əlaqədar bildiririk ki, səfirliyin küçəyə baxan kameralarında 24 dəqiqə erkən vaxt müşahidə olunur. Bu fərq də bəzi texniki amillərlə mövcuddur. Səfirliyin içində və çölündəki kameralarda zaman fərqi var. Bu zaman fərqi də 24 dəqiqəyə bərabərdir”.

**“Növbəti mərhələlərdə hansı addımların atılacağı hələlik məlum deyil”**

*A.Hacızadə səfirliyə hücum üçün terrorçunun məhz cümə gününü seçməsinə diqqət yetirib:* ”İranda həmin gün istirahət günüdür. Terror aktına mane olan hər hansı halları minimuma endirmək məqsədilə özü ilə hadisə yerinə avtomat silahı, güllələrlə dolu daraq, tapança, eyni zamanda ”Molotov kokteyli” və digər yandırıcı maddələr gətirməsi hadisənin əvvəlcədən planlaşdırıldığını ehtimal etməyə əsas verir”. XİN sözçüsü İran səfirliyinin Azərbaycanda fəaliyyət göstərib-göstərməyəcəyinə münasibət bildirib: ”İranın Azərbaycandakı səfirliyinin fəaliyyəti ilə bağlı biz tərəfdən heç bir rəsmi müraciət olmayıb. Növbəti mərhələlərdə hansı addımların atılacağı hələlik məlum deyil. Bu barədə hansısa bir qərar da yoxdur”.

**“Terrorçuların cəzalandırılmasını İrandan tələb etmişik, lakin əsaslı cavab verilməyib”**

*XİN rəsmisi qeyd edib ki, guya, cinayətkarın səfirliyə iki azyaşlı uşağı ilə gəldiyinə dair mediada xəbər yayılmışdı. Amma videodan göründüyü kimi, bu, planlaşdırılmış terror hücumudur. O bildirib ki, səsləndirilən bəyanatların heç bir əsası yoxdur:* ”Bu terrorçuların cəzalandırılmasını İrandan tələb etmişik. Lakin indiyə qədər İran heç bir əsaslı cavab verməyib”. Ayxan Hacızadə vurğulayıb ki, müşahidələrdən göründüyü kimi, hücum edən şəxs ruhi xəstə deyil: ”Hadisədən sonra dövlət televiziyalarına müsahibəsində də bu aydın görünür”. XİN sözçüsü bildirib ki, bu barədə səsləndirilən bəyanatlar əsassızdır.

**“İran indiki məqamda tutarlı tədbirlər görmək niyyətində deyil”**

*XİN sözçüsü bildirib ki, İran indiki məqamda tutarlı tədbirlər görmək niyyətində deyil:* ”İran tərəfdən səfirliyimizə hücumla bağlı qənaətbəxş tədbirlər görülmədiyi təqdirdə, hansı addımların atılacağı barədə hazırda hər hansısa bir məlumat verə bilmərəm. Hadisədən sonra İran polisinin fəaliyyəti onu göstərir ki, İran tərəfi indiki məqamda tutarlı tədbirlər görmək niyyətində deyil”.

Ayxan Hacızadə qeyd edib ki, bütün sübutlar hadisənin mütəşəkkil formada həyata keçirildiyini göstərir: ”İran tərəfdən səfirliyimizə hücum edən şəxsin daha əvvəl hansı fəaliyyətlə məşğul olması, hansısa bir təşkilata üzv olması barədə heç bir rəsmi məlumat daxil olmayıb”.

**“Onun fikri hamını öldürmək idi, tam hazırlıqlı gəlmişdi”**

*İrandakı səfirliyimizə terror hücumu zamanı yaralanan Vasif Tağıyev deyib ki, həmin gün səhər saat 08:00-da xidməti təhvil alıblar:* ”Monitorlardan ərazini izlədiyimiz vaxt Saipa markalı maşının yaxınlaşdığını gördük”. O bildirib ki, əli silahlı bir nəfər polisə işarə göstərərək binaya silahla atəş açaraq daxil olub və cinayət hadisəsini törədib: ”Polis ona heç bir reaksiya verməyib, yerində oturur. Məlumat üçün deyim ki, polis də orada tam silahlı olur”. Vasif Tağıyev qeyd edib ki, səfirliyin binası həm də yaşayış binasıdır: ”Orada 6 ailə yaşayır. Terrorçunun fikri hamını öldürmək idi. Çünki o, tam hazırlıqlı gəlmişdi. İki dolu daraq, ”Kalaşnikov” avtomatı, tapança, ağır alət, benzin doldurulmuş şüşələr. İlk atəşi Orxan Əsgərova açandan sonra mən onu tərksilah etmək istəyəndə 2-ci atəş mənim çiynimdən dəydi. Mən onu çölə atmaq istəyirdim. Onu tutduğum anda orada İran polisi ilə aramızdakı məsafə heç 10 metr yox idi. Qışqırırdım ki, polis kömək etsin. Həm fars, həm Azərbaycan dilində”.

**İsmayıl**

# İndiyə qədər Laçın yolundan 2000-ə yaxın avtomobil istifadə edib

## Ceyhun Bayramov Laçın yolundakı vəziyyət və Ermənistanın təxribatları barədə britaniyalı naziri məlumatlandırıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyanın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti ilə telefon danışığı zamanı Laçın yolundakı vəziyyət və Ermənistanın təxribatları barədə məlumat verib.**

**Bu barədə ”Şərq”ə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.**




Telefon danışığı zamanı tərəflər Azərbaycan-Böyük Britaniya ikitərəfli gündəliyinin aktual məsələlərini, bölgədə yaranmış son vəziyyəti və Azərbaycanla Ermənistan arasında sülh prosesinin perspektivlərini müzakirə ediblər.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərdən məmnunluğunu bildirən nazir Ceyhun Bayramov, rəsmi təmasların və səfərlərin əhəmiyyət daşıdığını qeyd edib. Nazir Laçın yolu ətrafında yaranmış son vəziyyət barədə qarşı tərəfə məlumat verib. Qeyri-qanuni iqtisadi fəaliyyətə, Laçın yolunun sui-istifadəsinə qarşı həyata keçirilən etirazların Azərbaycan xalqının legitim hüququ olduğunu, blokada və humanitar vəziyyət ilə bağlı iddiaların heç bir əsasının olmadığı, humanitar yüklərin daşındığı və indiyə qədər yoldan 2000-ə yaxın avtomobilin istifadə etdiyi diqqətə çatdırılıb.

Ermənistanın öhdəliklərə riayət etməməsi, habelə post-münaqişə dövründə normallaşma prosesinə yaratdığı maneələr və silsilə təxribatlar, sülh sazişi üzrə sonuncu Moskva görüşünü boykot etməsi barədə qarşı tərəf məlumatlandırılıb. Azərbaycanın sülh gündəliyini irəlilədən və bölgədə yenidənqurma işləri aparan bir dövlət kimi normallaşma prosesində maraqlı olduğu vurğulanıb.

Dövlət naziri Leo Dokerti öz növbəsində Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş silahlı hücumu qətiyyətlə pisləyib, başsağlığı diləklərini çatdırıb. O, bölgədə sülhə mane olan çətinliklərin aradan qaldırılmasının, danışıqların bərpa olunmasının vacib olduğunu bildirib.

Daha sonra, tərəflər ikitərəfli və çoxtərəfli məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Paşinyan stereotipləri sındırmaq istəyir

## Baş nazir revanşistlərin Qarabağ iddiasına son verməyə çalışır

**”Ermənistanın hakim ”Vətəndaş Müqaviləsi” Partiyasının üzvlərinin zaman-zaman Qarabağ və Türkiyə ilə bağlı konstruktiv mövqe sərgilədiklərini görürük”. Bu barədə ”Şərq”ə açıqlamasında Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, əlbəttə, Baş nazir Nikol Paşinyan özü birbaşa bunları deyə bilməz:**



”Paşinyan da parlament səviyyəsində çıxışları zamanı müəyyən praqmatik açıqlamalar verir. Baş nazirin də Qarabağ və Türkiyə ilə bağlı çıxışlarına rast gəlirik. İrəvan hökuməti cəmiyyəti sülhə hazırlamalıdır. 30 il ərzində Ermənistan ”miatsum” və Azərbaycana, Türkiyəyə qarşı ərazi iddiaları, soyqırım iddiaları ilə çıxış edib. Uzun zaman dövlət və cəmiyyət olaraq düşmənçilik siyasəti həyata keçiriblər. Buna dövlətin ideoloji xətti kimi baxıblar. Paşinyan həmin stereotipləri sındırmaq istəyir. Revanşistlərin Qarabağ iddiasına son verməyə çalışır. Təbii ki, revanşistlər və radikal müxalifət buna qarşıdır. 3 milyon Ermənistan xalqı Qarabağ ermənilərinə görə niyə əziyyət çəkməlidir? Azərbaycan dövləti Qarabağdakı ermənilər məsələsini həll edəcəyini bəyan edib. Artıq münaqişə bitib və bundan sonra ermənilərin hansısa təxribatına ciddi cavab veriləcək. Bu da erməni əhalisini daha pis və çıxılmaz vəziyyətə salacaq”.

**İsmayıl**

# Media subyektlərinə vergi güzəştlərinin uzadılması təklif edilir

## Azadolmalar 2023-cü il yanvarın 1-dən hesablanaraq 3 il müddətində qüvvədə olacaq

**Fevralın 6-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Tahir Mirkişili Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirib ki, Prezidentin imzası ilə Milli Məclisə təqdim olunan qanun layihəsi media subyektlərinin vergidən azad olunması ilə bağlı müddəaları özündə ehtiva edir.**



Komitə sədri bu istiqamətdə atılan addımlar, media subyektlərinə dövlət tərəfindən edilən vergi güzəştləri barədə danışıb. Təqdim olunan qanun layihəsini media subyektlərinə ən çox güzəşt tətbiq olunan vergi rejimlərindən biri kimi dəyərləndirən komitə sədri bildirib ki, bununla da Azərbaycan media subyektlərini bütövlükdə vergilərdən azad edən ölkələrin sırasına yüksələcək. Qanun layihəsinə əsasən, media subyektlərinin öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin, habelə onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımların gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif olunub. Eyni zamanda media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də əlavə dəyər vergisindən azad edilir. Azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq.

**“Güzəştlər media subyektlərinin inkişafına imkan verəcək”**

*Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov da media subyektlərinə vergi güzəştlərinin tətbiq edilməsi ilə bağlı hazırlanan qanun layihəsini media sahəsində dövlət tərəfindən aparılan islahatların növbəti addımı kimi dəyərləndirib.* O, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin media subyektlərinin iqtisadi müstəqilliyinin, çevikliyinin, maliyyə şəffaflığının, peşəkarlığının artırılmasına imkanlar yaradacağından danışıb: ”Media subyektlərinə vergi güzəştlərinin tətbiq edilməsi gələcəkdə onlara daha çevik və reallığa uyğun öz iqtisadi və biznes layihələrini həyata keçirməyə imkan verəcək”. Onun sözlərinə görə, bu güzəştlər eyni zamanda media subyektlərinin inkişafı və jurnalistikanın peşəkarlığının artırılmasına imkan verəcək: ”Hazırda media reyestrindən olan subyektlərlə sıx işlər aparılır”.

**“Media ilə bağlı vergidən azadolma niyə 5 il yox, 3 ildir?”**

Media subyektlərinin vergidən azad olunma müddətinin 5 il olması təklif edilib. Millət vəkili Əli Məsimli vurğulayıb ki, 3 il azdır: ”3 il müddətinin 5 ilə müddətinə çatdırılmasını vacib hesab edirik. Atılan addımlar medianın vəziyyətinin yaxşılaşdırılmasına, cəmiyyətdəki rolunun artırılmasına yardım edəcək.

**“Sahibkarlarla əlaqədar sayt yaradılsın”**

*Deputat Rüfət Quliyev sahibkarlarla əlaqədar sayt yaradılmasını təklif edib:* ”Azərbaycanda sahibkarların biznes uğurlarından bəhs edən sayt yaradılsın. Həmin saytlarda sahibkarların uğurlarından bəhs olunsun. Sahibkarlar da uğurlarından danışmaqda maraqlıdırlar. İstəyirlər ki, onların biznes uğurlarından yazılsın. Düşünürəm ki, həmin sahibkarlar sayta müəyyən yardımlar da edəcəklər”.

**İsmayıl**

# Azərbaycan tərəfi dəqiq bilir

## İran müharibəyə cəlb edilmək üzrədir, savaşda qalib gəlməsi isə real deyil

**“3 min leqal hədəfi nişangaha alan İsrail artıq açıqlayıb ki, İran nüvə silahını əldə etməyə çox yaxındır. İran təxminən, 60 metr yerin dərinliyində açdığı laboratoriyalar ilə uzun müddət İsrailin real zərbələrindən müəyyən qədər gizlənə bilib”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə şərhçi Əziz Əlibəyli deyib.*



O bildirib ki, ABŞ-nin eks Prezidenti Donald Trampın 2019-cu ildəki mövqeyinə hansısa ABŞ prezidentinin qayıtması mütləq reallıqdır:

”Dövlət katibi Con Bolton İranın hərbi əməliyyatlarla sıradan çıxarılması planını hazırlamışdı. Başqan Trampa təqdim etmişdi. Prezidentin isə həmin layihəyə reaksiyası onu istefaya göndərməsi olmuşdu.

Hazırda İsrail konkret olaraq İranla bağlı hərbi əməliyyatlara başlayacağını açıqlayıb. Bunu minilliyin əsas hədəfi kimi ifadə edib.

İran bizim prizmadan əvvəlcə zəif Ermənistan və uzaq Hindistanla, bir də sərhədi olmayan Rusiya ilə əməkdaşlığa getməklə son seçimini faktiki etdi.

Halbuki bölgənin digər gücü Avropa İttifaqı ABŞ və İsrailin dəqiq hərbi mövqeyinə qarşı tərəddüdlə yanaşırdı. Lakin Tehranın Ukrayna müharibəsində Rusiyaya silah ötürməsi fonunda özünü çətin vəziyyətə saldı.

Çünki yaxın günlərdə Rusiya ilə İsrail bölgədə - Yaxın Şərqdə bir - birilərinin maraqlarına zərbə vurmamaqla bağlı razılığa gəldilər. Yəni İrana qarşı mümkün hərbi münasibətdə Rusiya İsrailə qarşı çıxış etməyəcək. Bəs Azərbaycan İsraildə necə səfirlik açmaq riskini gözə ala bildi? Xarici siyasətdə Prezident İlham Əliyev faktoru inanılmaz dərəcədə dəqiq və proqnoza söykənən amillərdən asılıdır. Azərbaycan tərəfi dəqiq bilir ki, İran müharibəyə cəlb edilmək üzrədir. Savaşda qalib gəlməsi isə real deyil”.

**Aygün Tahir**

# Türkiyədə dəhşətli zəlzələ

## NATO və Aİ üzvü olan 45 ölkədən yardım təklif olunub



**Türkiyənin cənub-şərqində 7.5 bal gücündə dəhşətli zəlzələ baş verib. Episentri Kahramanmaraş vilayəti olan zəlzələ Qaziantep şəhəri də daxil olmaqla 10 əyalətdə ciddi dağıntılara, ölümlərə yol açıb. 3 minə yaxın binanın tamamilə uçduğu deyilir. Həyatını itirənlərin və yaralıların sayı durmadan artmaqdadır. Son məlumata görə, zəlzələdə ölənlərin sayı 1651-ə çatıb, 11 119 nəfər yaralanıb. Ölkədə fövqəladə vəziyyət elan edilib.**

Türkiyə rəsmiləri 4-cü dərəcə siqnal verərək, beynəlxalq yardımı qəbul etməyə hazır olduqlarını bildiriblər. Yeraltı təkanlar bütün regionda - Suriya, Fələstin, Kipr və Livanda da hiss olunub. Türkiyə daxili işlər naziri Süleyman Soylunun sözlərinə görə, Türkiyənin on şəhəri zərər çəkib. Onların arasında Adana, Adıyaman, Qaziantep, Diyarbəkir, Kilis, Kahramanmaraş, Malatya, Osmaniyə, Hatay var. Yeraltı təkanlar Ankara, Antalya, Kayseri, Mersin, Trabzon, Urfada da hiss olunub. Qeyd edək ki, Türkiyə dünyanın ən aktiv seysmik zonalarından birində yerləşir. Ölkədəki ən güclü zəlzələlərdən biri 1999-cu ildə İzmit bölgəsində baş verib. O zaman 18 mindən çox insan ölüb. Türkiyənin Daxili İşlər və Səhiyyə Nazirliyi, Fövqəladə Hallar İdarəsi, əyalət qubernatorları və bütün digər idarələr sürətlə işə başlayıblar. Türkiyə Qırmızı Xaç Cəmiyyətinin rəhbəri Kerem Kınık bildirib ki, zərər çəkmiş bölgəyə kömək üçün resurslar səfərbər olunur: ”Eyni zamanda Türkiyə beynəlxalq yardımı qəbul etməyə hazırdır”. Daxili işlər naziri Süleyman Soylu yerli sakinləri qəzalı evlərə girməməyə, nəqliyyatdan istifadə etməməyə, lazımsız yerə təcili yardım çağırmamağa çağırıb.







**“45 ölkədən yardım təklifləri var”**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan zəlzələdən zərər çəkmiş bölgələrə təcili olaraq axtarış-xilasetmə qruplarının göndərildiyini bildirib. Ərdoğan deyib ki, NATO və Aİ üzvü olan 45 ölkədən yardım təklifləri var. O qeyd edib ki, beynəlxalq yardımlar üçün müraciətlərə baxılır. Ərdoğan zəlzələnin 1939-cu ildə Ərzincanda baş vermiş zəlzələdən sonra ən güclü zəlzələ olduğunu qeyd edib. Əlavə edib ki, zəlzələnin fəsadlarının aradan qaldırılmasına 9000 axtarış-xilasedici cəlb edilib. Türkiyə Prezidenti hava şəraitinin xilasetmə işlərinə çətinlik yaratdığını vurğulayıb. O qeyd edib ki, beynəlxalq yardımlar üçün müraciətlərə baxılır.

**“Enerji infrastrukturlarımıza ciddi ziyan dəyib”**

Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz Kahramanmaraşda baş verən 7,4 bal gücündə zəlzələdən sonra bölgədəki son vəziyyəti açıqlayıb. Nazir, elektrik enerjisi və təbii qaz xətlərində zədələr olduğunu bildirib: ”Enerji infrastrukturlarımıza ciddi ziyan dəyib. Həm elektrik verilişi xətlərində, həm də təbii qaz ötürücü və paylayıcı xətlərində zədələr var. Ən böyük zərərlərimizdən biri də episentrə yaxın olan Türkoğlu rayonunda təbii qaz xəttinin qopmasıdır. Bu xətt əsasən Maraş, Qaziantep, Hatay və Kilisə təbii qazı daşıyan əsas nəql xəttimizdir”. O bildirib ki, səyyar elektrik stansiyalarını əraziyə göndəriblər: ”Çalışacağıq ki, xəstəxanalar, çörək sexləri kimi obyektlərdə təbii qaz və enerjini mobil generatorlarla təmin edək”.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlət başçısı Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini deyib. Dövlət başçısı zəlzələ zamanı həlak olanlarla bağlı Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırıb, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirib. Qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Ölkə rəhbəri deyib ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib. Prezident vurğulayıb ki, ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq. Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlət başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə edib.

FHN-in Bakı Regional Mərkəzinin rəisi general-mayor Məhərrəm Həsənov deyib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə yollanan Fövqəladə Hallar Nazirliyinin 420 nəfərlik şəxsi heyəti Adana şəhərinə çatıb. O bildirib ki, FHN-in Adanaya çatmış çevik xilasetmə qüvvələrindən ibarət heyət zəlzələnin nəticələrini aradan qaldırmaq üçün hadisə yerinə yola düşür: ”Fəsadların aradan qaldırılmasında Azərbaycan xilasediciləri son ana qədər qardaş Türkiyənin yanında olacaq. Sona qədər fəaliyyət göstərəcəyik”.

**İsrail Türkiyəyə yardım ayırdı**

İsrailin xarici işlər naziri Eli Koen deyib ki, Xarici İşlər Nazirliyinə tapşırılıb ki, ciddi fəlakətlə əlaqədar Türkiyəyə operativ yardım proqramına rəhbərlik etsin: ”İsrail dövləti adından bu axşam Türkiyənin cənubunda baş verən güclü zəlzələ ilə əlaqədar türk xalqına dərin kədərimi bildirmək istərdim. Ürəklərimiz qurbanların yanındadır və yaralıların tezliklə sağalmalarını diləyirik”.

**Deputatın ailəsi dağıntılar altında qaldı**

Türkiyənin Ədalət və İnkişaf Partiyasının deputatı Hüseyn Yaymanın ailəsi zəlzələ nəticəsində dağıntılar altında qalıb. Bu barədə Hüseyn Yayman özü məlumat yayıb. Onun sözlərinə görə, iki qardaşı, onların həyat yoldaşları, bacısı və onun həyat yoldaşı, övladları dağıntılar altındadır. Yayman Hatayda zəlzələnin çox şiddətli olduğunu vurğulayıb.

NATO Baş katibi Yens Stoltenberq deyib ki, müttəfiqləri Türkiyənin yanındadırlar: ”Prezident Ərdoğan və xarici işlər naziri Mövlud Çavuşoğlu ilə əlaqə saxlayıram və NATO müttəfiqləri hazırda Türkiyəyə dəstək üçün qüvvələri səfərbər edir”.

**“Britaniya Türkiyəyə hər cür yardım göstərməyə hazırdır”**

Böyük Britaniyanın Baş naziri Rişi Sunak Türkiyə xalqının yanında olduqlarını deyib: ”Britaniya Türkiyəyə əlindən gələn hər cür yardımı göstərməyə hazırdır. Düşüncələrim həm də zəlzələdə zərərçəkənləri xilas etmək üçün cəsarətlə çalışan xilasedicilərlədir. Böyük Britaniya Türkiyəyə əlindən gələn hər cür kömək etməyə hazırdır”. Britaniya Türkiyəyə 76 nəfərlik axtarış-xilasetmə qrupu göndərib. Xarici işlər naziri Ceyms Kleverli deyib ki, britaniyalı axtarış-xilasetmə mütəxəssisi, dörd axtarış iti və xilasetmə avadanlığı Türkiyəyə yollanıb. Böyük Britaniya, həmçinin yerdəki vəziyyəti qiymətləndirmək üçün təcili tibbi yardım qrupu göndərib.

**Bayden: ”Türkiyəyə yardım göstərmək barədə tapşırıq vermişəm”**

ABŞ Prezidenti Co Bayden bildirib ki, Türkiyəyə yardım göstərmək barədə tapşırıq verib: ”Türkiyədə və Suriyada baş vermiş zəlzələ nəticəsində insan tələfatı və dağıntılar məni çox kədərləndirdi. Mən komandama Türkiyə ilə koordinasiyalı şəkildə vəziyyəti yaxından izləmək və lazım olan hər cür yardımı göstərməyə davam etmək barədə tapşırıq vermişəm”.

Yunanıstan Türkiyədə baş verən dəhşətli zəlzələ ilə əlaqədar yardım göndərib. Yunanıstan Mülki Müdafiə Agentliyi məlumat yayıb ki, qonşu Türkiyəyə kömək etmək üçün Yunanıstan yanğınsöndürmə xidmətinin xüsusi fəlakətlərin idarə olunması bölməsinin 21 üzvü, iki xilasedici it, bir xilasetmə maşını, 5 həkim və tibb işçisi, geoloqlar və mülki müdafiə ekspertlərindən ibarət heyət yola düşüb: ”Missiyanı hökumətin təbii fəlakətlərin idarə olunması təşkilatının rəhbəri də müşayiət edir”.

Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonna Türkiyədəki zəlzələ ilə bağlı paylaşım edib: ”Türkiyədə yenicə baş verən və çoxsaylı qurbanlara səbəb olan dəhşətli zəlzələdən sonra türkiyəli həmkarım Mövlud Çavuşoğluna dərin hüznlə başsağlığı verdim. Fransa türk xalqının yanındadır”.

**Borrel: “Aİ Türkiyə və Suriyaya kömək etməyə hazırdır”**

Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell deyib ki, Avropa İttifaqı (Aİ) Türkiyəyə kömək etməyə hazırdır: ”Bu səhər Türkiyə və Suriyada baş verən dağıdıcı zəlzələ yüzlərlə insanın həyatına son qoyub, çoxlu sayda yaralı var. Diqqətimiz Türkiyə və Suriya xalqlarının yanındadır. Aİ kömək etməyə hazırdır”.

**Gürcüstan Türkiyəyə 60 xilasedici göndərib**

Gürcüstan Daxili İşlər Nazirliyi bildirib ki, Türkiyədə baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Baş nazir İrakli Qaribaşvilinin qərarı ilə Gürcüstan Fövqəladə Halların İdarəetməsi Xidmətinin əməkdaşlarından ibarət qrup müvafiq avadanlıqlarla birlikdə Türkiyəyə yola salınıb. Qeyd olunub ki, yanğınsöndürənlər və xilasedicilərdən ibarət qrupun axtarış-xilasetmə fəaliyyətlərinə şəxsən Gürcüstanın Fövqəladə Halların İdarəetməsi Xidmətinin rəisi Teymuraz Mğebrişvili rəhbərlik edəcək.

**İsmayıl**

# Azərbaycanda güclü zəlzələ gözlənilmir

## Qurban Yetirmişli: “Binalar tikiləndə mütləq seysmoloji tədqiqatlar aparılmalıdır”



**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin mətbuat konfransı keçirilib. Qurumun baş direktoru Qurban Yetirmişli qardaş Türkiyədə baş vermiş zəlzələ daxil olmaqla, son günlər region ölkələrində baş vermiş dəhşətli sarsıntılardan bəhs edib. Baş direktor Azərbaycanda zəlzələ ehtimalından və tikililərin mövcud vəziyyətindən də danışıb.**

**“Türkiyədəki zəlzələnin afterşokları 1 ay davam edə bilər”**

*Qurban Yetirmişli Türkiyədə baş vermiş zəlzələnin süni şəkildə yaradıldığı ilə bağlı səsləndirilən fikirlərə münasibət bildirib:* ”Türkiyədə baş vermiş zəlzələnin afterşokları 1 ay davam edə bilər. İllər öncə İranda belə hal yaşanmışdı və biz, onu müəyyən etmişdik. Süni zəlzələləri biz hazırda öz işimizdən ayırırıq. Təbii proseslə süni prosesi bir-birindən ayırmaq mümkündür. Əsasən haradasa partlayışlar baş verəndə süni şəkildə zəlzələlər olur”.

Qurban Yetirmişli bildirib ki, Türkiyədə baş verən zəlzələ bizdə bəzi insanlar tərəfindən hiss olunub: ”Zəlzələ Naxçıvan və Lənkəranda hiss edilib. Məsafə uzaq olduğundan təsiri az olub”.

**“Qısamüdətli zəlzələnin proqnozunu vermək qeyri-mümkündür”**

*Qurban Yetirmişli vurğulayıb ki, Bakıda bəzən bir binanın zəlzələyə davamlılığına 7-8 bal verilir:* ”Binalar tikiləndə mütləq şəkildə seysmoloji tədqiqatlar aparılmalıdır. Riski minimuma endirmək üçün hər bir binanın quruluşu araşdırılmalıdır. Bakı da çox geoloji mürəkkəb quruluşa malikdir”.

Baş direktor deyib ki, Türkiyədə baş vermiş zəlzələ Azərbaycandakı zəlzələ ocaqlarını oyada bilməz: ”Yaxın günlərdə bizdə güclü zəlzələ olması ehtimalı yoxdur”.

Seysmoloji Xidmət Mərkəzinin baş direktoru vurğulayıb ki, qısamüddətli zəlzələnin proqnozunu vermək qeyri-mümkündür: ”Seysmoloji Xidmət Mərkəzinin praktikasında iki ortamüddətli zəlzələ proqnozu var. Birinci zəlzələ ilə bağlı proqnoz 2000-ci ilin noyabrın 25-də olub. Həmin xəbərdarlıqda Xəzərdə aktiv seysmoloji aktivlik müşahidə olunduğu qeyd edilmişdi. Zəlzələnin proqnozunu vermək nə qədər çətindirsə, onu əhaliyə çatdırmaq da bir o qədər çətindir. İkinci zəlzələnin proqnozunu isə 2012-ci ildə şəxsən mən vermişəm. Balakən zonasında aktivləşmə olmuşdu və mayda zəlzələ oldu”.

**Qurban Yetirmişli tikinti şirkətlərinə xəbərdarlıq edib**

Qurban Yetirmişli vurğulayıb ki, 8 ballıq zəlzələ zonası ilə müqayisədə 9 ballıq ərazidə tikinti apararkən, hesablanmış normativlərə görə 40 faiz əlavə vəsait qoyulmalıdır. Onun sözlərinə görə, xüsusi dəmir-beton kalonlar var, onların ölçüləri, armaturlar, N kəsiyinin ölçüləri nəzərə alınmalıdır: ”Əgər 8 ballıq zonada bina 1 milyona başa gəlirsə, 9 ballıqda 1 milyon 400 min manata başa gələcək. Tikinti şirkətləri əlavə vəsait xərcləmək və bunun vergisini vermək istəmirlər”.

**İsmayıl**

# Tehran son şansını itirdi

## Qərb və İran əbədi düşmən olacaq





**Moskva və Tehran Rusiyada İran pilotsuz uçuş aparatlarının istehsalı üçün zavod tikmək planlarını davam etdirir. Müəssisə Ukraynadakı müharibə üçün ən azı 6 min dron istehsal etməyi planlaşdırır.**

Məlumata görə, inkişaf etməkdə olan hərbi ittifaqın bir hissəsi olaraq İranın yüksək səviyyəli nümayəndə heyəti zavodun tikintisi üçün nəzərdə tutulan əraziyə baş çəkmək və layihənin işə salınması ilə bağlı təfərrüatları müzakirə etmək üçün yanvarın əvvəlində Rusiyada olub. Kreml və Tehran nümayəndə heyətləri Tatarıstan Respublikasında yerləşən Yelabuqa şəhərindəki zavodun tikintisi planlaşdırılan boş sahəni gəziblər.

Bildirilir ki, hər iki ölkə hava hücumundan müdafiə sistemləri üçün yeni problemlər yarada biləcək daha sürətli PUA-lar yaratmağa çalışır.

**Rusiya və İranın birgə PUA istehsalı zavodu tikməsi barədə ”Şərq”ə danışan politoloq Turab Rzayevin fikrincə, indiyədək İranın Qərblə münasibətləri yaxşılaşdırmaq şansı var idi. Lakin İran artıq öz tərəfini seçir:** ”Rusiya-Ukrayna müharibəsi başlayan dövrdə ABŞ İranı yenidən nüvə müqaviləsinə qayıtmağa, Qərblə münasibətləri bərpa etməyə, sanksiyaları aradan götürməyə, dondurulmuş hesablarını açmağa və s. çağırmışdı. Qərb Avropaya gedəcək neft və qazı Rusiya əvəzinə İranla dəyişə biləcəyini düşünürdü, danışıqlar da gedirdi. Səudiyyə Ərəbistanın İstanbuldakı jurnalist Camal Qaşıqçı cinayətindən sonra ABŞ ilə münasibətləri pozulmuşdu. Hətta ABŞ Prezidenti Co Bayden Səudiyyə Ərəbistanının vəliəhdi, şahzadə Məhəmməd bin-Salmana ”salam” belə verməyəcəyini söyləyirdi. Belə halda ən ideal namizəd İran idi. Hələ də Bayden administrasiyasında İran əsilli şəxslər, güclü tərəfdarları var. SEPAH üzərində Rusiyanın çox ciddi təsiri mövcuddur. Hətta eşitdik ki, Ukraynada yüzlərlə İran PUA-ları Kiyevdə dağıntılara səbəb olub. Nəticədə İran neft və qazının Avropaya satışının üstündən xətt çəkildi”.

*Analitik söyləyir ki, SEPAH xətti nəyin bahasına olsa da, nüvə silahı əldə etmək və bölgədə öz təsirini hərbi yolla artırmağa səy göstərir:*

”Rusiya ilə çox yaxın bağlantılar qurub. İran PUA-larının, dronlarının Ukraynada istifadəsindən sonra ona qarşı əlavə sanksiya paketi təsdiqləndi. SEPAH Avropa Parlamenti tərəfindən terrorçu təşkilatlar siyahısına salındı. İndi isə Avropa İttifaqı, Böyük Britaniya bunu nəzərdən keçirir. İranın gələcəkdə münasibətləri yumşaltmaq şansı qalmışdısa, dron istehsalından sonra son şansını da itirdi. Qərb və İran əbədi düşmən olacaq.

Rusiya üçün ucuz İran dronları bahalı raketlərdən daha sərfəlidir. Rusiya geniş şəkildə istifadə edəcək. Ancaq Rusiya üçün əsas məsələ dronlar deyil, yanında müttəfiqlərin olmasıdır. Faktiki şəkildə Rusiya İranı öz tərəfində döyüşməyə məcbur etdi. Rusiya həm MDB ölkələri, həm də Çin daxil digər müttəfiqləri Qərbə qarşı mübarizə aparmağı tələb edir”.

**Aygün Tahir**




# Redaktorlar və şöbə müdirləri jurnalist kimi qeydiyyata alınacaqlar

## Telekanal operatorları və texniki işçilər Media Reyestrində qeydiyyatdan kənarda qalacaq

**"Artıq redaksiyalardakı redaktorlar və şöbə müdirləri də media reyestrində jurnalist kimi qeydiyyata alınacaqlar". Bunu Mətbuat Şurasının toplantısında Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov deyib. O bildirib ki, bununla bağlı MEDİA-nın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüşü keçirilib, məsələ həllini tapıb:**

"Bu, "Media haqqında" qanundakı problem deyil. Bu, media qurumlarının redaksiyada vəzifələri düzgün qeyd etməməsi ilə əlaqədardır. Çünki həmin redaksiyalarda texniki şöbələr də var ki, oranın əməkdaşları jurnalist deyil. Media Reyestrinə daxil olan məlumatlarda bu şəxslərin vəzifəsi şöbə müdiri kimi göstərilib. Həmin şöbə müdiri ipoteka üçün hər hansısa bir banka müraciət edəndə bank işçisi onun kim olduğunu bilmir və problem yaranır. Biz bununla bağlı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə müraciət etdik və nazir, onun komandası bizə yol göstərdi, biz də problemi aradan qaldırdıq. Artıq redaktorlar və şöbə müdirləri də jurnalist kimi qeydiyyata alınacaqlar".

Əhməd İsmayılov deyib ki, telekanallarda operator və digər texniki işçilər Media Reyestrində jurnalist kimi qeydiyyata alınmır. O bildirib ki, həmin şəxslərin jurnalist kimi qeydiyyata alınması düzgün deyil: "Qanunda yazılıb ki, media təmsilçisi başqadır, jurnalist başqa. Məsələn, televiziyalarda operator vəzifəsində işləyənlər media təmsilçisi ola bilər. Amma onlar jurnalist deyillər. Televiziya jurnalistlərinin süjet hazırlamasında onların da rolu var. Amma bu, jurnalist olmaq deyil. Ona görə də həmin şəxslər jurnalist kimi qeydiyyata alınmayacaq".

**"Media Reyestrindən keçməyən media qurumu fəaliyyət göstərə bilməyəcək"**

**MEDİA rəhbəri bildirib ki, Azərbaycanda Media Reyestrindən keçməyən media qurumu fəaliyyət göstərə bilməyəcək:** "Azərbaycanda fəaliyyət göstərən bütün media qurumları reyestrdən keçməlidir. Biz bununla bağlı media subyektlərinə 6 ay müddət müəyyən etmişik. Azərbaycanda media subyekti fəaliyyətini bəyan etməlidir. Fəaliyyətini bəyan etmək üçün də həmin qurum media reyestrindən keçməlidir. 6 ay müddətində hansısa media subyekti Media Reyestrindən keçmirsə, biz həmin qurumu aşkarlayıb onun barəsində məhkəməyə müraciət edəcəyik. Məhkəmə də həmin media subyektinin fəaliyyətinə xitam verəcək".

**"Jurnalist işləməyən Əməkdar jurnalistlər Media Reyestrində qeydiyyata alınmır"**

Ə.İsmayılov vurğulayıb ki, media subyekti ilə əlaqəsi olmayan və jurnalist işləməyən Əməkdar jurnalistlər Media Reyestrində qeydiyyata alınmır. O bildirib ki, əməkdar jurnalistlər, sabiq jurnalistlərin qeydiyyatı mümkün deyil: "Çünki onlar vaxtında jurnalist işləsələr də, hazırda işləmir. Yəni hazırda media subyekti ilə əməkdaşlıq etməyən şəxs jurnalist kimi Media Reyestrində qeydiyyata alına bilməz". Ə.İsmayılov həmçinin bildirib ki, hazırda Mətbuat Şurasında işləyən şəxslər də jurnalist hesab edilmədiyindən onlar da Media Reyestrində qeydiyyata alınmayacaq və jurnalist hüququndan istifadə edə bilməyəcək.

**"Kimlərsə sui-istifadə hallarına yol verməyə cəhd edirlər"**

Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli bildirib ki, 4 gündür davam edən "icazəli media istəmirik" kampanyası siyasi qüvvələrin əli il aparılır. Onun sözlərinə görə, vaxtilə əmək müqaviləsi ilə işləməyən jurnalistlərin bu gün reyestrdən keçməyində əngəl yaranan zaman bunu reyestrin problemi kimi başa düşürlər: "Halbuki problemin kökü başqadır. Kimlərsə sui-istifadə hallarına yol verməyə cəhd edirlər. 4 gündür ki, "icazəli media istəmirik" kampaniyasına başlayıblar. Günlərdir davam edən bu etirazın kökü başqadır. Media Reyestri ilə bağlı etirazlarda İranın, qərb qüvvələrinin, müxalifətin istəyi var. Onlar diqqəti başqa məcraya yönəltmək üçün indi "Media haqqında" qanunu gündəmə gətirir, reyestrdən keçməklə bağlı problem yaşadıqlarını deyirlər. Halbuki sənədləri qaydasında olan şəxslərin reyestrdən keçməsində problem yoxdur".

**İsmayıl**

# Xankəndidən maraqlı faktlar gəlir

## Artıq orada yaşamaq istəmirlər, dron çəkilişlərində insanların azaldığını görürük



**Dünən Şuşadan keçən Xankəndi-Laçın yolunda Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus 6 avtomobilin hərəkət etməsinə şərait yaradılıb. Belə ki, həmin minik avtomobilləri Xankəndidən Laçın istiqamətinə keçid edib.**

Bu, bir daha göstərir ki, humanitar məqsədli maşınların keçidi üçün heç bir maneə yoxdur.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 57 gündür davam edir.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Rusif Məmmədsoy "Şərq"ə bildirib ki, bölgədə, regionda və İranın daxilində baş verən hadisələr, bizə Laçın-Xankəndi yolundan diqqətin yayındığını deməyə imkan verir:** "Bununla paralel şəkildə Avropada Azərbaycan əleyhinə qətnamə qəbul edildi. Təşəbbüskar isə Fransa dövləti idi. Ancaq istənilən halda rəsmi Bakı bu məsələdə qətiyyətlidir. Xüsusilə aksiyalar məqsədə çatana qədər davam edəcək. Artıq bizim rus sülhməramlıları ilə birgə yola nəzarətimiz həyata keçirilir və biz bunu rəsmiləşdirmək istəyirik. Yəni bizim Dövlət Sərhəd Xidməti (DSX) və Dövlət Gömrük Komitəsi (DGK) oradan istifadə edən insanlar və yükləri öz nəzarətində saxlamalıdır. Bununla yanaşı proses sadə görünə bilər, amma belə deyil. Laçın-Xankəndi yoluna birgə nəzarətdən sonra, dövlət qurumlarımızın ora sirayət etməsi çox vacibdir. Həmçinin bizim Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri həmin ərazilərdə monitorinq keçirməlidir. Bu monitorinq əsasında da biz öz sərvətimizə sahib çıxmalıyıq ki, qeyri-rəsmi şəkildə istismar edilməsin".

Analitikin sözlərinə görə, monitorinq bizim dövlət qurumlarımızın Xankəndi-Laçın yoluna sirayət etməsi üçün həyata keçirilir: "Ümumiyyətlə, tədricən proses öz axarına düşəcək. Digər tərəfdən, məsələdə tələsməli olduğumuzu düşünürəm. Nə qədər ki, dünyanın başı qarışıqdır və regionda baş verən hadisələr diqqət çəkir, bu məsələdə yol tapılmalıdır. Həmçinin Xankəndidən də maraqlı kadrlar gəlir. İnsanlar artıq orada yaşamaq istəmirlər. Bu, sadəcə olaraq psixoloji durumdur. Onlar Vardanyan və digər avantüristlərin qurbanına çevrilmək istəmirlər. Bunun nəticəsində isə Xankəndidən edilən dron çəkilişlərində insanların azaldığını görürük. Bu fonda Vardanyanın da açıqlaması olmuşdu. O bildirib ki, "Varlı insanlar bayram zamanı Xankəndidən gedib və geri qayıtmayıblar".

Yəni bu da onu deməyə əsas verir ki, Xankəndidə yaşayan ermənilər narahatdır. Əlbəttə, Azərbaycanın Xankəndi və digər bölgələr ilə bağlı mövqeyi qətidir. Biz 44 günlük savaşda belə əlində silah olmayan əhaliyə qarşı heç bir güc tətbiq etmədik. Bu gün də rəsmi Bakı eyni mövqedə dayanır.

Ümumiyyətlə, türk ordusu modeli bunun üzərində qurulub. Digər tərəfdən, Xankəndidə yaşayan və Azərbaycan vətəndaşı olan ermənilər Bakının bu mövqeyini düzgün qiymətləndirməlidirlər. Vardanyan və Arutyunyan kimilərin qurbanına çevrilməməlidirlər.

Bu məsələdə Avropanın mövqeyinə gəldikdə isə bu, birmənalı deyil. Çünki biz Avropa İttifaqı və Qərb dedikdə, sadəcə, Fransanı nəzərə ala bilmərik. Fransa özlüyündə Aİ-ni təmsil etmir.

Bizim İtaliya və Şərqi Avropa ölkələri ilə çox yaxşı əlaqələrimiz var. Onlar da Fransanın bu mövqeyindən narahatdırlar.

Ona görə ki, Rusiya-Ukrayna müharibəsi fonunda, bu gün Azərbaycan dünyanı enerji ilə təmin edən ölkələrdən biridir".

**Nihat Müzəffər**

# Yazılı və ixtisaslaşmış mediaya reklam verməyi təşviq etmək lazımdır





**Azər Həsrət:** *"Güzəştlər tətbiq edilərsə, dövlətimiz elə də böyük məbləğdə pul itirməyəcək, amma əvəzində dayanıqlı, ciddi bir media yaranacaq"*

**Aqil Camal:** "Müsabiqə şərtləri əsasında media orqanlarına verilən vəsaitlərə vergi güzəştlərinin olması təqdirəlayiq olardı"

**"Yazılı mediaya reklam verən şirkətlərə güzəşt tətbiq olunmalıdır. Medianın reklam gəlirləri kifayət qədər azdır. 2021-ci ildə medianın 42,3 mln. manatlıq gəliri olub. Bu gəlirlərin 36 mln. manatı televiziyanın payına düşür".**

Bu təkliflə Milli Məclisin komitə iclasında millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, ixtisaslaşmış medianın reklam gəlirləri kifayət qədər azdır: "Yazılı və ixtisaslaşmış mediaya reklam verməyi təşviq etmək lazımdır. Vergi Məcəlləsində dəyişiklik edilərək reklam verən şirkətlərə güzəştlər tətbiq edilməsi və vergi güzəştlərinə baxılması lazımdır ki, bu, biznesi mediaya reklam verməyə təşviq etsin. Ötən il sosial media gəlirlərin əhəmiyyətli dərəcədə hissəsini götürüb. Azərbaycanda sosial medianın gəlirləri, yazılı mediadan daha çoxdur və olacaq da. Biznesen sosial mediada reklam yerləşdirməkdə daha maraqlıdır, nəinki yazılı mediada. Buna görə də mediaya reklam verilməsinin təşviqi mühümdür". Parlament üzvü vurğulayıb ki, biznes təşviq olunmazsa, medianın gəlirlərində kəskin artımlar müşahidə olunmayacaq.

**Deputatın təklifini "Şərq"ə dəyərləndirən media eksperti, "Bayraqdar.info" saytının baş redaktoru Azər Həsrət "Şərq"ə deyib ki, medianın ayaqda dura bilməsi üçün vergi sahəsində müəyyən güzəştlərin tətbiq edilməsi yerinə düşər. Baş redaktorun sözlərinə görə, xüsusən reklam sahəsində vergi güzəştlərinin tətbiqi çox önəmlidir:** "Bu addım əsasən, çap və onlayn medianın daha ciddi şəkildə ayaqda durmasına əlavə stimul verər. O baxımdan, təklif təqdirəlayiqdir. Düşünürəm ki, güzəştlər tətbiq edilərsə, dövlətimiz elə də böyük məbləğdə pul itirməyəcək. Amma əvəzində dayanıqlı, ciddi bir media yaranacaq. Yəni az xərclə böyük fayda əldə etmək imkanı formalaşacaq. Güzəştlərin tətbiq edilməsi ilə normal medianın təşviq edilməsinin yolları da açılacaq. Son illərdə dövlət ciddi medianın inkişafı üçün önəmli tədbirlər görür. Böyük miqdarda vəsaitlər ayrılır. Əlavə olaraq, reklam və vergi güzəştlərinin tətbiq olunması sayəsində dövlət öz məqsədinə çatmış olacaq. Dayanıqlı, ciddi mətbuat qeyri-ciddi, vətəndaşlar arasında ajiotaj yaratmağa hesablanmış mediadan daha önə çıxacaq. Əlbəttə, söhbət çap və onlayn mediadan gedir. Televiziya və radio sahəsində durum bir qədər fərqlidir".

**"Türküstan" qəzetinin və "Turkustan.info" saytının baş redaktoru Aqil Camal isə mediaya dəstək verən şirkətlərə vergi güzəştlərinin təklifi ilə bağlı fərqli yanaşma ortaya qoyub. Baş redaktor bildirib ki, Azərbaycanda reklamların bölüşdürülməsi, ümumiyyətlə, reklamların verilməsi məsələsi subyektivdir:** "Reklam məsələsi hansısa şəxsi münasibətlərə, inzibati göstərişlərə əsaslanır. Bu baxımdan gələcəkdə şirkətlər media subyektlərinə reklamlar vermək adı ilə az sayda qurumlarla sövdələşməyə gedərək, yeni gizli "əməkdaşlıqlar" yaradaraq, müəyyən qədər vəsaiti vergidən gizlədə bilərlər. Reklamın təşviq olunması ilə bağlı ən yaxşı yol ümumən reklamın şirkətlərə aşılanması və müəyyən kriteriyaların müəyyən olunmasıdır. Şirkətlər hansı kriteriyalara söykənərək media subyektlərinə reklamlar verirlər? Baxanda görürük ki, reklam heç də reytingə, populyarlığa, daha çox oxucu kütləsinə görə deyil, şəxsi münasibətlərə görə media orqanlarına verilir. Yaxşı olar ki, bu sahədə yaradılmış monopoliya aradan götürülsün".

**A.Camal hesab edir ki, mediaya dəstəyin tətbiq olunması zamanı ilk növbədə dövlət dəstəyi ilə göstərilən maddi yardımların vergidən azad olunması ön planda olmalıdır:** "Media bu məsələdə çox ciddi problemlər yaşayır. Müəyyən mübahisələr yaranır, arayışlar tələb olunur. Dövlət büdcəsindən gələn vəsaitin nağd formada çıxarılması zamanı da media qurumları problemlərlə qarşılaşır. Bu baxımdan ilk növbədə dövlət qurumları tərəfindən yardım formasında, yaxud müsabiqə şərtləri əsasında media orqanlarına verilən vəsaitlərə vergi güzəştlərinin olması təqdirəlayiq olardı. Bununla bağlı informasiya media cameəsində müsbət qarşılanmaqdadır".

**İsmayıl Qocayev**



# "Blokada" nağıllarına inananların sayı azalır

## Erməniləri dəstəkləyən mərkəzlər belə Laçın mövzusunu çeynəməkdən yorulurlar

**"Erməni separatçılarının Rusiyadan Xankəndiyə "ixrac edilən yeni lideri" Ruben Vardanyan profilində yazıb ki, dünyada yaşayan ermənilərin vəzifəsi "Artsax" mövzusunu beynəlxalq aləmin gündəmində saxlamağa çalışmaqdır. Adam narahatdır".**

*Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Ruben Vardanyan müxtəlif dünya nəşrlərinə, televiziya kanallarına çoxsaylı müsahibələr verdikdən sonra onun simasına və bölgəyə marağın azaldığını hiss etməyə başlayıb:* "Həqiqətən, Ermənistan hakimiyyəti, erməni separatçıları və erməni lobbisi birgə səylərlə bir müddət beynəlxalq aləmin diqqətini Laçın dəhlizindəki duruma, "blokada mövzusuna" çəkə bildilər. İndinin özündə də bir sıra Qərb ölkəsində "Laçın dəhlizini açın" səsləri eşidilir. Ancaq günlər və həftələr keçdikcə bu mövzuya maraq azalır. Bunun iki səbəbi var. Birincisi, beynəlxalq aləmin diqqətini məşğul edən başqa mövzular var. Rusiya-Ukrayna müharibəsi, Tayvan ətrafındakı vəziyyət, İran-İsrail qarşıdurması və bu kimi gərginliklər fonunda Laçın mövzusu getdikcə arxa plana keçir. Erməniləri dəstəkləyən mərkəzlər belə Laçın mövzusunu çeynəməkdən yorulurlar. Həmin mərkəzlərin "yolu açın" çağırışları eşidilmədiyinə görə eyni mövzuya hər dəfə qayıtmaq istəmirlər".

Bu amilə görə Qarabağdakı erməni separatçılarının mövqeləri zəifləyir

*E.Şahinoğlu vurğulayıb ki, ilk günlər "Artsax blokadadır" yalanına insanlar real vəziyyəti görməyə başlayıblar:* "Real vəziyyət isə bundan ibarətdir ki, yol açıqdır. Nəqliyyat vasitələri işləyir, ərzaq və dərman çatdırılır, ermənilər xəstələrini Ermənistana apara bilirlər. Bunlar varsa, "blokada" nağıllarına inananların sayı azalır. Bu iki amilə görə Qarabağdakı erməni separatçılarının mövqeləri zəifləyir. Ona görə də Ruben Vardanyan ermənilərdən tələb edir ki, "Laçın blokadadır" yalanı təbliğatını davam etdirsinlər. Bizə sakitləşmək olmaz. Ermənilərə Azərbaycan əleyhinə kampaniyanı yenidən genişləndirməyə imkan vermək olmaz".

**İsmayıl**

# Zəlzələ həyəcanı, köhnə binaların taleyi gündəmdədir

## Memar Cahid Həsənov: ”Bakıda göydələnlər yox, sovetdən qalma ”Xuruşovka” və ”Stalinka”lar daha risklidir”



**Dünyanın zəlzələ ocaqlarında aktivlik müşahidə edilir. Xüsusən də bizə yaxın olan region ölkələrində yeraltı təkanların sayı və gücü artıb. İrandakı 4.5 bal gücündəki zəlzələdən sonra qardaş Türkiyə, Suriyada bir-birinin ardınca zəlzələlər baş verir. Türkiyədə 7.4 bal gücündəki zəlzələ binalarda və yaşayış obyektlərində dağıntılarla nəticələnib.Yayılan məlumatlarda əsasən köhnə binaların uçduğu qeyd olunub.**

Qeyd edək ki, bu qədər güclü olmasa da ölkəmizdə zaman-zaman güclü və zəif zəlzələlər olur. Qardaş ölkədəki təbii fəlakətdən təşvişə düşən insanlar sosial şəbəkələrdə ”Bizim yeni tikililər heç 5 bal gücündəki zəlzələyə belə dözməz” kimi paylaşımlar ediblər.

Eyni zamanda Bakıdakı köhnə binaların taleyi də gündəmə gəlib. Son illər onlardan bəziləri sökülsə də, böyük əksəriyyətində hələ də yaşayış davam edir.

Ekspertlər isə bəyan edib ki, binanın nə dərəcədə zəlzələyə davamlı olub olmamasını müəyyən etmək üçün onun tikinti texnologiyasına baxmaq lazımdır.

Adətən təməli möhkəm qoyulmayan, zəlzələ dayanıqlığı nəzərə alınmayan binalar yerlə-yeksan olur.

**Memar Cahid Həsənov ”Şərq”ə açıqlamasında deyib ki, Bakıdakı göydələnlər yox, sovetdən qalma ”Xuruşovka” və ”Stalinka”lar daha risklidir.**

Onun sözlərinə görə, yeni tikilən çoxmərtəbəli binalarda hər hansı təbii fəlakətin qarşısının alınması məqsədilə pərçimləmə işləri həyata keçirilir. Daha sonra çalalar qazılır və bünövrə altları hazırlanır və üst mərtəbələr tikilir: ”Xüsusən də Fövqəladə Hallar Nazirliyi yaranandan sonra tətbiq edilən qaydalar, verilən sərəncamlarda əks olunan tikinti qaydaları təbii fəlakətlərə davamlıdır. Hər bir binanın tikintisi zamanı FHN tərəfindən əvvəlcədən yoxlamalar keçirilir. Yoxlamalar zamanı ərazinin geoseysmik göstəriciləri də mütləq şəkildə nəzərə alınır. Ərazinin seysmik göstəricilərinə uyğun olaraq, layihə icraçısı qarşısında tələblər qoyulur.

Amma elə binalar var ki, MTK-lar sənəddə əks olunan qaydalardan kənara çıxıb, keyfiyyətsiz tikinti materiallarından istifadə edib. Bu halda onun dözümlülüyünə zəmanət yoxdur. Ancaq belə binaların da sayı çox az olar. Əksər binaların tikintisi zamanı tətbiq edilən normativlər ölkəmizdəki binaların zəlzələyə davamlılığını həyata keçirir. Yeni tikililər təxminən 8-9 bal gücündə zəlzələyə davamlıdır.

Binaların zəlzələ və digər təbii fəlakətlərə davamlı olması məqsədilə tikintiyə təsdiq edilmiş layihə əsasında başlanılır. Bu zaman layihədə normativlər göstərilir və iş bu şəkildə icra edilir”.

C.Həsənovun sözlərinə görə, qardaş ölkədə yaşanan fəlakət zamanı yeni çoxmərtəbəli binanın bir anda dağılmasına səbəb texniki şərtlərin nəzərə alınmaması ola bilər: “Çoxmərtəbəli binanın o hala düşməsi lap faciədir. Dar sütunların qoyulması, konstruktiv möhkəmliyin zəif olması nəticəsində binalar təbii fəlakətə tab gətirə bilmir. Vaxtilə İrana, Türkiyəyə gedəndə tikililəri müşahidə edirdim. Bu ölkələrdəki tikililərdə seysmik şərtlərin nəzərə alındığını görmədim. Amma Azərbaycanda bunu görə bilirik. Bu gün Azərbaycan yeni tikilən binalarda standartların nəzərə alınması baxımından digər ölkələrdən öndədir. Bir memar olaraq məni narahat edən köhnə binaların taleyidir. Sovet dövründə inşa edilən 3-4 mərtəbəli binalar var ki, hamısının istismar müddəti başa çatıb. Eyni zamanda sovetin tənəzzülünə yaxın 9 mərtəbəli binalar tikildi. Onların istismar müddəti başa çatmasa da, təbii fəlakətə davamlılığına zəmanət yoxdur. Binalar möhkəm tikilsə belə sonradan edilən artırmalar binaları çox yükləyib. Xüsusən də yuxarı mərtəbələrdə edilən artırmalar binanın təməlini zədələyir, binaya ağırlıq salır. Onsuz da istismar müddəti bitmiş binalar, bu artırmalara uyğun olaraq əyilir. Yəni təbii fəlakətlər zamanı da risk qrupuna aid olur. Yaxşı ki hazırda ”Xruşşovka”ların sökülməsi, tədricən yeni binalarla əvəz olunması prosesi gedir. Digər köhnə binaların da növbəti dövrlərdə sökülüb yerində yeni binaların tikilməsi, yaxud parkların salınması işi sürətləndirilsə, çox yaxşı olardı. Dediyim kimi, təhlükə anında köhnə binalar texnoloji baxımdan standartlara cavab vermir”.

Zəlzələdən, o cümlədən digər təbii fəlakətlərdən heç bir ölkənin sığortalanmadığını vurğulayan memarın tikinti şirkətlərinə tövsiyəsinə görə, layihə hazırlanarkən qanunvericilikdə nəzərdə tutulmuş müvafiq normalara əməl edilməlidir: ”Regionlarımıza da nəzər yetirsək, orada da tikilən binaların texniki baxımdan möhkəmliyinə dövlət qurumları tərəfindən nəzarət edilir. Amma fərdi yaşayış evlərinin tikintisinə də ciddi nəzarət olmalıdır. Bir, yaxud ikimərtəbəli şəxsi yaşayış evi tikilirsə, standartlar nəzərə alınmalıdır. Ucuz başa gəlsin deyə konstruksiya baxımından texniki şərtləri ixtisara salmaq belə, fəsadlara gətirib çıxara bilər. Heç bir ölkə təbii fəlakətdən sığortalanmayıb. Ona görə də ictimaiyyətə çağırış edirəm ki, yaşayış evləri tikərkən bir qədər xərc çəkib memarlıq-konstruksiya baxımından texniki şərtləri yerinə yetirsinlər, fəsadlar olmasın. Hər nə qədər mütəxəssislər ehtimal verməsə də, dünya xəritəsində Azərbaycan da seysmik zona hesab olunur. Türkiyədə dağılan binalara baxıram, 16-lıq armaturların yerinə 12-lik qoyublar. Halbuki xüsusi dəmir-beton kalonlar var, onların ölçüləri, armaturlar, N kəsiyinin ölçüləri nəzərə alınmalıdır. Bəzi şirkətlərin tamahı güc gəlir, artıq qazanmaq üçün zəlzələ zonası üçün tələb olunan normativləri gözardı edir. Halbuki bu cür fəlakətlər göstərir ki, insan həyatının maddi dəyəri yoxdur”.

**Şəymən Bayramova**



# Kremlin qələbə arzusu suya düşüb

## Putin Ukraynada döyüşən ordunun komandanlığını tez-tez dəyişməli olur

**”Rusiya-Ukrayna müharibəsində Kreml administrasiyasının bir sıra yanlış addımları oldu ki, bu da ümumi olaraq müharibənin gedişinə təsir etməyə bilməzdi”. Bu barədə politoloq Samir Hümbətov deyib. Ekspert bildirib ki, 18 gün sonra Rusiya-Ukrayna müharibəsində 1 il arxada qalır və hələ də tərəflərin, xüsusilə də Rusiyanın ciddi uğuru nəzərə çarpmır: ”Bu isə həm ordu daxilində, həm də cəmiyyət arasında ruh düşkünlüyünə səbəb olmaqla yanaşı, həm də Kreml administrasiyasının sorğulanmasına səbəb olur.**

Müharibənin başlaması həm də bir sıra məqamların da üstünü açmış oldu. 24 fevral 2022-ci ilə qədər rus cəmiyyətinə və dünyaya təqdim edilən yenilməz ikinci super güc Rusiya ordusu mifi yavaş-yavaş çökməyə başladı. Müharibədən verilən kadrlar və rus hərbiçilərinin əsir düşməsi, eləcə də müharibənin ilk vaxtlarından 14 rus generalının öldürülməsi isə ordunun hansı vəziyyətdə olmasını aydın şəkildə göstərmiş oldu. Kreml administrasiyasının ordu və ordu rəhbərliyi ilə aralarında olan rəqabət zaman-zaman daha aydın hiss edilsə də, Ukrayna savaşında bu tendensiya o qədər də nəzərə çarpdırılmadı. Yeni belə demək mümkündür ki, Kreml administrasiyası ordu ilə müştərək fəaliyyətə üstünlük verdi. Amma məsələnin digər bir önəmli tərəflərindən biri də məhz bəzi əlahiddə və proksi qrupların da müharibəyə cəlb edilməsi oldu. Belə ki, müharibənin ilk vaxtlarından Kadırovun başçılıq etdiyi çeçen döyüşçüləri önə çıxmaq istəsə də, uğurlu nəticə olmadı və verilən məlumatlara əsasən, Kadırov təkcə bu müharibədə 25-30 min arası canlı qüvvə itirdi. Nəticədə isə geri çəkildi. Daha sonra isə Priqojinin rəhbərlik etdiyi Vaqner Ukraynada görünməyə başladı. Baxmayaraq ki, Rusiyada 1 milyona qədər silahlı qüvvələr var, amma Kreml administrasiyası yenə də ordunun mövcud durumunu nəzərə alaraq Vaqneri də müharibəyə daxil etdi. Beləliklə, müharibədə iştirak edənlərin miqyası böyüməyə başladı”.

**Analitik vurğulayıb ki, Kreml daha öncə Vaqneri Suriyada, Liviyada, ÇAD-da və digər bölgələrdə döyüşdürüb:** ”İlk vaxtlar Vaqner Ukraynada ciddi itkilər verdi ki, bu da Priqojin və Rusiya üçün nüfuz itirmək anlamına gələ bilər. Daha sonra isə yayılan məlumatlarda Rusiya həbsxanalarında ağır cəzaya məhkum edilmiş şəxslərin Vaqner tərəfindən müharibəyə cəlb edilməsi haqqında məlumatlar yayılmağa başlanıldı. 2022-ci ilin aprelində Ukraynada döyüşən ordunun başında Aleksandr Dvornikov gətirildi. Onun ciddi uğurları olmadığı üçün oktyabrda növbəti dəyişiklik oldu və Sergey Srovik rəhbərliyə gətirildi. Ordu yenə ciddi uğur qazana bilmədi. Əksinə, Vaqner həbsxanadan götürüb döyüşdüyü dustaqlarla daha çox fərqlənməyə başladı ki, bu da Kreml administrasiyasında ciddi narahatlıq yaratmağa başladı. Ona görə də təqribən 3 həftə öncə Putin Ukraynada döyüşən ordunun komandanlığını dəyişməli oldu. Bu dəfə isə Ordunun baş qərargah rəisi Valeri Gerasimovu komandanlığa gətirmiş oldu. Şübhəsiz ki, Kreml administrasiyasını bu dəyişimə vadar edən əsas səbəblərdən biri də Vaqner rəhbəri Priqojinin elita daxilində nüfuzunun artmasıdır. Bu isə Putinin hakimiyyətinə ziddir”.

**İsmayıl Qocayev**



# Daha 8 qazimiz Vətənə qayıdıb

**Ağır yaralanan 8 nəfər qazimiz Türkiyədə davam edən müalicələrini tamamlayaraq Vətənə qayıdıb.**

Bu barədə ”YAŞAT” Fondundan məlumat verilib.

Qeyd olunub ki, onlardan yeddi nəfərinin müalicə müddəti müvafiq olaraq 2 il, bir nəfər Cəlal Sadıqov Elfaq oğlunun isə 1 il müddətində davam etdirilib. Təqdim olunan həkim rəyinə əsasən onların müalicəsi ölkəmizdəki ixtisaslaşmış tibb müəsissələrində davam etdiriləcək:

1. Samir Əliyev Daşqın oğlu
2. Elşən Xanəliyev Çingiz oğlu
3. Elmar Nəsirov Elmir oğlu
4. Etiram Musayev Nağı oğlu
5. Valeh İsayev Mehrac oğlu
6. Əzim Qafarov Rafik oğlu
7. Əfsər Ataxanlı Tələt oğlu
8. Calal Sadıqov Elfaq oğlu

# Erməni barbarlığını gözləri ilə gördülər

## Beynəlxalq səyyahlar Ağdamda olublar

**Beynəlxalq səyyahlar qrupunun işğaldan azad edilmiş ərazilərə səfərinin sonuncu ünvanı Ağdam rayonu olub. Onlar Cəbrayılda Xudafərin körpüsü ilə tanış olduqdan sonra Ağdama gəliblər.**



Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən Ağdam Cümə məscidinə, Dram Teatrının qalıqlarına və yerlə bir edilmiş Şəhidlər xiyabanına baxış keçirilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdam şəhərinin yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Yeni tikilən Konfrans Mərkəzi ilə tanış olan beynəlxalq səyyahlar, həmçinin Ağdamda həyata keçirilən quruculuq işləri barədə də məlumatlandırılıblar. Bildirilib ki, Azərbaycan qısa müddətdə, özü də heç bir xarici maliyyə dəstəyi olmadan xarabalıqlarda cənnət yaradır.

*Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərə səfər edən 30 nəfərlik heyətə 12 ölkədən - ABŞ, Böyük Britaniya, İrlandiya, Belçika, Almaniya, Fransa, Danimarka, Niderland, İtaliya, İspaniya, Braziliya və Rusiyadan olan nüfuzlu səyyahlar daxildir.*

# Ali məktəblərə qəbul olanlar daha çox paytaxt sakinləridir

## Hər il regionlardan ali məktəblərə qəbul olanların sayında azalma müşahidə edilir



**Ali məktəblərə qəbul olanlar arasında paytaxt sakinləri üstünlük təşkil edir.**

Bunu Təhsil Tələbə Krediti Fondunun (TTKF) HR Forumunda İdarə Heyətinin sədri Araz Paşayev deyib.

Onun sözlərinə görə, hər il regionlardan ali məktəblərə qəbul olanların sayında azalma müşahidə edilir. Regionlar arasında Oğuz, Qəbələ, Gədəbəy rayonlarından qəbul sayı yüksəkdir: ”Amma ümumi qəbul sayının aşağı düşməsi müəllim çatışmazlığı ilə əlaqədardır. Məsələn, Şəkinin Kiş kəndində bir qız həkim olmaq istəyirdi, sınaq imtahanlarında 500-dən çox bal toplayırdı. Tibb Universitetinə qəbul olub ödənişsiz təhsil almaq üçün azı 650 bal lazımdır. O xanım kənddə kimya müəllimi olmadığı üçün hazırlaşa bilmirdi.

Fitri istedadlı, maddi vəziyyəti aşağı olan savadlı şagirdlər var. Biz bu kreditlər vasitəsilə onların təhsil almasına şərait yaratmaq, tələbələrin təhsil nəticələrinin yaxşılaşdırılmasına çalışırıq”.



# Rumıniya da böyük xəttə qoşuldu

## Azərbaycanın yaşıl enerjisi Avropaya ixrac olunacaq

**”Azərbaycan Avropa İttifaqına üzv dövlətlər arasında ilk olaraq Rumıniya ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb.**

**Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana səfər etməsi, iqtisadi və siyasi sahələrlə bağlı imzalanmış sənədlər iki ölkə arasında strateji əlaqələri daha da genişləndirmiş oldu”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili Kamilə Əliyeva deyib.

Azərbaycanla Rumıniya arasında illərdir yüksəksəviyyəli siyasi, iqtisadi əlaqələrin mövcud olduğunu vurğulayan deputat iki dövlət arasında 2009-cu ildə strateji tərəfdaşlıq haqqında imzalanan müqaviləni xatırladıb: ”Rumıniya hər zaman bütün beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Sənədlərin imzalanma mərasimində Prezident cənab İlham Əliyev Rumıniyanın, eləcə də Avropa İttifaqının enerji təhlükəsizliyinə gələcəkdə də Azərbaycanın böyük töhfə verəcəyi haqqında bəyanatla çıxış edib. Son dövrlər Azərbaycanla Rumıniya arasında ticarət dövriyyəsinin iki dəfədən çox artmasına baxmayaraq, hər iki dövlətin liderləri gələcəkdə ticarət əlaqələrinin daha da genişləndiriləcəyini qeyd etdilər. Azərbaycanda hasil olunacaq təbii qaz Rumıniya ilə yanaşı bu ölkənin vasitəsilə Şərqi və Mərkəzi Avropanın digər ölkələrinə də ixrac ediləcək. Azərbaycan son dövrlər yaşıl enerji istehsalı ilə bağlı dünyanın bir neçə nəhəng şirkəti ilə müqavilə imzalayıb. Azərbaycanda istehsal olunan yaşıl enerjinin Avropaya ixrac edilməsi üçün Rumıniya da iştirak edir. Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə Qara dənizin dibi ilə Avropaya elektrik enerjisinin ötürülməsi üçün xətt çəkiləcək. Bu layihənin icrasına digər dövlətlərin və xarici şirkətlərin də qoşulacağı gözlənilir”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycan Misirlə əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir

## Bu ölkə Azərbaycanın müstəqilliyini dəstəkləyən ən güclü Afrika ölkələrindən biridir

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Parlament nümayəndə heyəti Misirə rəsmi səfərə gedib. Səfər çərçivəsində spiker Sahibə Qafarova Misir Senatının və Nümayəndələr palatasının sədrləri, bu ölkənin Baş naziri və Ərəb Parlamentinin nümayəndələri ilə bir sıra görüşlər keçirib. Xatırladaq ki, yanvarın 28-də Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfəri reallaşdı və iki ölkə arasında mühüm sənədlər imzalandı. Sisinin Azərbaycana səfəri əlamətdar hadisə olmaqla yanaşı, həm də qarşılıqlı əlaqələrin inkişafında yeni səhifənin açılmasına səbəb oldu.**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Misir 1991-ci il dekabrın 26-da ölkəmizin müstəqilliyini tanıyıb. 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokola əsasən, Misirin Bakıda, 1994-cü ilin yanvarında isə Azərbaycanın Qahirədə səfirlikləri açılıb. Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir Prezidenti ilə görüşüb. Prezidentlərin bu görüşündə Azərbaycan-Misir münasibətlərinin yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində çox mühüm məsələlər müzakirə edilib. Misir Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ədalətli mövqeyini daim müdafiə edib. Ulu Öndər Heydər Əliyevin əlaqələri inkişaf etdirmək istiqamətində həyata keçirdiyi siyasətin nəticəsi olaraq 2005-ci il noyabrın 6-13-də Misirdə Azərbaycan və 2006-cı il noyabrın 20-28-də Azərbaycanda Misir mədəniyyət günləri keçirilib. Prezident İlham Əliyev 2007-ci il mayın 6-8-də Misirdə rəsmi səfərdə olub. Dövlətimizin başçısı səfər çərçivəsində Qahirədə Azərbaycan səfirliyinin yeni binasının açılış mərasimində iştirak edib. Azərbaycan Prezidenti İlham Əliyev mayın 7-də Misir Parlamenti tərəfindən medal ilə təltif olunub. Qızıldan hazırlanmış bu medal Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilir. Səfər zamanı mühüm protokollar imzalanıb. Bundan başqa 2016-cı il noyabrın 2-də Azərbaycanın xarici işlər naziri Misirdə, 2019-cu ilin noyabrında Misirin xarici işlər naziri Sameh Şukri Qoşulmama Hərəkatının XVIII Zirvə Toplantısında iştirak etmək üçün Azərbaycanda səfərdə olub. Bu səfərlər zamanı keçirilən görüşlər və müzakirə olunan məsələlər qarşılıqlı əlaqələrin bugünkü inkişaf səviyyəsinə çatmasında əhəmiyyətli rol oynayıb. Hələ 2002-ci ilin oktyabrında Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiya yaradılıb ki, bunun da fəaliyyəti nəticəsində əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atılıb. Komissiyanın fəaliyyətinin nəticəsi olaraq indiyədək ölkələrimiz arasında 50-yə yaxın sənəd imzalanıb, 21 sənəd layihəsi isə müzakirə mərhələsindədir.

Azərbaycanda ticarət, sənaye və xidmət sahələrində Misir investisiyalı 14 şirkət fəaliyyət göstərir. İki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial var. Enerji sahəsində əməkdaşlığımız çoxşaxəlidir və bu əlaqələrin genişləndirilməsi üçün tədbirlər həyata keçirilir, SOCAR Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlıq edir. Əlaqələrimiz turizm sahəsində də inkişaf edir və son illər Misirdən Azərbaycana gələn turistlərin sayı 50 faiz artıb. Eyni zamanda Azərbaycanla Misir arasında bir sıra mühüm sosial layihələr həyata keçirilir. Misir Prezidentinin Azərbaycana səfəri, aparılan danışıqlar, keçirilən müzakirələr və qarşılıqlı faydalı əməkdaşlıq haqqında sənədlərin imzalanması münasibətlərdə yeni inkişaf səhifəsinin açıldığını deməyə əsas verir.

**Onu da qeyd edək ki, Misirin Qahirə Siyasi və Media Dialoqu Araşdırmaları Mərkəzi Azərbaycanla bağlı geniş hesabat dərc edib. Hesabatda qeyd olunub ki, Azərbaycan və Misir müxtəlif sahələrdə geniş islahatlar həyata keçirən və böyük gələcəyə malik olan ölkələrdir:** "Misir Ərəb Respublikası BMT, İƏT çərçivəsində olduğu kimi, həmin formatda da rəsmi Bakı ilə daha geniş əməkdaşlıq etmək əzmindədir. Bu siyasi iradə Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşündə də aydın şəkildə ifadə olundu. Hər iki ölkənin xarici siyasəti beynəlxalq və regional təşkilatların prinsip və nizamnamələrinə sadiqlik, iştirak və səmərəlilik çərçivəsində məqsədlərinə çatmaq üçün çalışmaq üzərində qurulub. Bu prinsiplərdən ən mühümü suverenlikdə bərabərlik, dövlətlərin daxili işlərinə qarışmamaq, habelə Birləşmiş Millətlər Təşkilatının məqsədlərini həyata keçirmək üçün səy göstərməkdən ibarətdir. Xüsusən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, iqtisadi və sosial sahələrdə beynəlxalq əməkdaşlığa nail olunması Misir və Azərbaycan üçün prioritet məsələlərdir. Bu, iki ölkənin nümayəndələrinin beynəlxalq forumlarda rəsmi çıxışlarında, terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlıqda göstərdikləri səylərdə aydın görünür. 2022-ci il Azərbaycanda "Şuşa İli" oldu, Qahirə isə İslam mədəniyyətinin paytaxtı seçildi. Bu kontekstdə Qahirə və Şuşa şəhərləri müxtəlif sivilizasiyaların və mədəniyyətlərin görüş yeridir. Azərbaycan da böyük coğrafi əhəmiyyəti - dəniz limanı, enerji layihələri və nəqliyyat dəhlizləri sayəsində yalnız regional deyil, həm də qlobal miqyasda mühüm ölkə statusunu qazanır. Bu baxımdan iki dost ölkənin iqtisadi əməkdaşlığının böyük potensialı mövcuddur".

***"İki ölkənin əməkdaşlığının həm Misirin yerləşdiyi region, həm də Cənubi Qafqaz üçün vacib əhəmiyyəti var"***

**Politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, son dövrlər Misir-Azərbaycan əlaqələrini yüksək qiymətləndirmək lazımdır. Ekspert vurğulayıb ki, Misirin Türkiyə ilə münasibətlərini normallaşdırması fonunda Azərbaycanla əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir:** "Həmçinin bu gün Azərbaycanın Aralıq dənizində maraqları mövcuddur. Ölkəmizin Misirlə əlaqələri yüksək səviyyəyə çatdırması əməkdaşlıq meyarlarının dərinləşməsini tələb edir. Misir Prezidenti Ə.Sisinin Azərbaycana səfərindən qısa zaman sonra Azərbaycan Milli Məclis Sədrinin Misirə səfəri, qarşılıqlı anlaşmalar iki ölkənin münasibətlərində gələcəkdə daha önəmli razılaşmalardan xəbər verir. Azərbaycanın Misirlə əməkdaşlığı mühüm əhəmiyyətə malikdir. Çünki Misir Azərbaycanın müstəqilliyini dəstəkləyən ən güclü Afrika ölkələrindən biridir. Misir daim Azərbaycanla əlaqələrin inkişafını prioritet kimi müəyyənləşdirib. Bu baxımdan iki ölkənin əməkdaşlığının həm Misirin yerləşdiyi region, həm də Cənubi Qafqaz üçün vacib əhəmiyyəti var".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Laçında qış turizmi də yararlıdır

## Avropada yaşayan iş adamı Qarabağa sərmayə qoyur

**Polşa və Almaniyada fəaliyyət göstərən "Sevara Group" Şirkəti tərəfindən işğaldan azad edilmiş Laçında, Həkəri çayı sahilində "CamperPark Həkəri" adlı ekoparkın-düşərgənin salınması ilə bağlı layihə Azərbaycan hökumətinə artıq təqdim edilib.**

**Bu barədə "İnterpress.az"a Almaniyada yaşayan azərbaycanlı iş adamı, əslən Laçından olan Rəşad Quliyev deyib.**

Bildirib ki, burada əsas məqsəd Zəngəzur və Qarabağın tarixini, füsunkar flora və faunasını dünyaya tanıtmaqdır: "Bununla bağlı aidiyyəti üzrə nazirliklərə müraciət edərək, gələcəkdə qarşılıqlı əməkdaşlıq barəsində müzakirələr aparılır və artıq tərəfimizdən aparılan işlərimiz təqdirəlayiq görülür.

Diaspora Komitəsi ilə əməkdaşlıq edərək, gələcəkdə xarici qonaqların Azərbaycana gəlişi zamanı onların Laçına səfər etmələri və müəyyən tədbirlərin də məhz burada keçirilməsi nəzərdə tutulur.

Habelə Elm və Təhsil, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi ilə sıx əməkdaşlıq ediləcək. Layihəmizə əsasən şagird və ya tələbələrin də asudə vaxtlarında düşərgəmizdə həm istirahət edə bilməsi, həm də təhsillərini davam etdirə bilməsi üçün dövlət tərəfindən müəyyən göndərişlərin verilməsi üçün müvafiq təkliflər paketi hazırlanıb Elm və Təhsil Nazirliyinə təqdim ediləcək".

O bildirib ki, bununla da "CamperPark" Cənubi Qafqazda ilk dəfə məhz Laçında yaradılan bir layihə olacaq: "Vaxtı ilə Ukraynada ARTEK adı ilə məşhur olan düşərgə kimi bizim düşərgə də ilin bütün fəsli fəaliyyət göstərəcək. Ərazidəki bütün tikililər mobil olacaq. Yəni təkər üzərində daşına bilən. Məhz buna görə də xüsusi bir tikinti işləri nəzərdə tutulmur.

Turistlər istər bizim karavanlarda (Campervan) gecələyə bilər, istərsə də öz karavanı ilə gələrək ərazidə qısa və ya uzun müddətli qalmaq üçün müvafiq yer seçimi edə biləcəklər.



***Millət vəkili Almaniyada yaşayan azərbaycanlı iş adamının layihəsinin təqdirəlayiq və örnək bir davranış olduğunu deyib***

Həmçinin fərqli ölçülərdə çadır düşərgəsinin də salınması nəzərdə tutulur. 4 təkərli dağ relyefinə uyğun kiçik mopedlərlə Hoçaz dağı / qayası boyunca ətraf ucqar kəndləri gəzmək, şəlalələri, bulaqları, mağaraları seyr etmək və tanımaq şansınız olacaq. Laçın turlarımız həmçinin Almaniyada bütün Avropa əhalisi üçün reklam ediləcək. Bununla da ölkəmizdə turist sayının artmasının şahidi olacağıq".

İş adamı qeyd edib ki, gələcəkdə festivalların da keçirilməsi nəzərdə tutulur ki, bu da öz növbəsində Respublikamızı tanıtmaqda böyük rol oynayacaq: "Əziz laçınlılar, Laçın tamamilə yenidən qurulur. Ölkə Prezidentinin uğurlu daxili və xarici siyasəti, uzaqgörənliyi, həmçinin şəhid və qazi qardaşlarımızın göstərdikləri rəşadətlə biz artıq Laçınımıza qayıdırıq. Laçında hazırda güclü tikinti, quruculuq və bərpa işləri gedir. Laçın əvvəlki Laçın deyil.

Bütün kommunikasiya sıfırdan qurulub. Güclü optik internet xətti belə var. Və düşünürəm ki, hər bir laçınlı öz rayonu, şəhəri, kəndi üçün nələrsə etməlidir. Adıçəkilən şirkətin sahibi mənəm və Almaniyada yaşayıram. Amma artıq ailəmlə bərabər Laçına köçməyi planlaşdırıram. Avropadan birbaşa Laçına. Və bu proyektimlə, var gücümlə Laçını dünyada tanıtmaq üçün çalışıram.

Gəlin əl-ələ verək və gözəl layihələrə dəstək olaraq, yeni iş yerlərinin açılması və Laçınımızın gözəlləşməsi üçün əlimizdən gələni əsirgəməyək".

**Millət vəkili Elman Məmmədov isə "Şərq"ə açıqlamasında Almaniyada yaşayan azərbaycanlı iş adamının bu layihəsinin təqdirəlayiq və örnək bir davranış olduğunu deyib. Deputatın fikrincə, xaricdə yaşayan imkanlı iş adamlarının da Qarabağın bərpasına investisiya qoyması əhəmiyyətlidir:** "Unutmamalıyıq ki, Qarabağı öz daxili imkanlarımız hesabına bərpa edirik. Dünyada yaşayan diaspor fəalları, tanınmış iş adamları bu prosesə öz töhfələrini verməlidirlər.

Sevindirici haldır ki, xaricdə yaşayan soydaşlarımız, iş adamları Qarabağın quruculuğu prosesində iştirak etmək istəklərini hər fürsətdə ifadə edirlər. Bu gün hər kəsin ən böyük arzusu Qarabağın dirçəlməsi prosesinə töhfə verməkdir. Qarabağda müasir şəhərsalma, 4-cü sənaye inqilabının çağırışlarına uyğun yanaşma və ən əsası yeni idarəetmə modeli ilə smart region yanaşması tətbiq edilir ki, bu da xarici investorların bölgəyə marağını daha da artırır. İşğaldan azad edilmiş ərazilərdə görülən işlərin, həyata keçirilən tədbirlərin sürətlə aparılması bölgə üçün geniş perspektivlər vəd edir".

E.Məmmədovun sözlərinə görə, kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Laçında bu imkanlardan istifadə edərək turizm obyektlərinin yaradılmasına nail olmaq olar. Əgər müasir tələblərə uyğun şəkildə qura bilsək, Laçın turistik bir zonaya çevrilər. Bu ərazilər həmçinin qış turizmi üçün də yararlıdır.

**Şəymən Bayramova**

**Salyanda gənc qızı qaçıran şəxslər saxlanılıb. Bu barədə "Report"a DİN-in Mətbuat xidmətinin Şirvan regional qrupunun baş inspektoru, polis kapitanı Nizam Həmidov məlumat verib. Onun sözlərinə görə, Salyan Rayon Polis Şöbəsinə rayonun Kürsəngi kəndi ərazisində Yolüstü kənd sakini olan bir qızın iki nəfər tərəfindən qaçırılması barədə məlumat daxil olub.**



# Özündə zorakılıq elementi daşıyan bütün hərəkətlər cinayətdir

## Bəzən qız qaçırmanı ənənəyə bağlamaq istəyənlər, buna haqq qazandırmağa çalışırlar

Şöbə əməkdaşlarının keçirdiyi tədbirlərlə qeyd edilən hadisəni törədən rayonun Yeni Uluxanlı kənd sakinləri Z.Səfərli və M.Hüseynov müəyyən edilərək saxlanılıblar. Faktla bağlı Salyan RPŞ-nin İstintaq Bölməsində Cinayət Məcəlləsinin 144.2.3-cü maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir. Xatırladaq ki, əvvəlcə yayılmış məlumatda Salyan rayon sakini, 1992-ci il təvəllüdlü Səfərli Zöhrab Natiq oğlu və həmkəndlisi 2003-cü il təvəllüdlü Hüseynov Mirsabir Bəhrəm oğlu ilə birlikdə 1998-ci il təvəllüdlü Aliyə Alıyevanı (ad, soyadı şərti) rayonun Kürsəngi kəndi ərazisində zorla Mirsabir Hüseynovun idarə etdiyi "VAZ-2106" markalı avtomobilə oturdaraq evlənmək məqsədilə qaçırdığı bldirilmişdi.

***"Adam oğurluğunda cinayət məsuliyyəti o zaman ləğv edilir ki, qaçırılan şəxs öz razılığı ilə getdiyini, qarşı tərəfdən şikayətçi olmadığını rəsmi şəkildə bildirir"***

**Hadisə barədə fikirlərini "Şərq"lə bölüşən "Təmiz Dünya" Qadınlara yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, kimliyindən asılı olmayaraq adam qaçırmaq insan oğurluğu hesab edilir və cinayət məsuliyyəti yaradır:**

- Bəzən qız qaçırmanı ənənəyə bağlamaq istəyənlər, "qız qaçırmaq adəti qədimdən olub, indi də var" deyərək buna haqq qazandırmağa çalışanlar tapılır. Özündə zorakılıq elementi daşıyan bu hərəkət birmənalı şəkildə cinayətdir. Buna hansısa formada haqq qazandırmaq mümkün deyil. Salyanda baş vermiş hadisədə qaçırılan şəxs yetkinlik yaşındadır. Qaçıran da həmçinin. Birinin 31 yaşı var, birinin 25. Fərz edək ki, 31 yaşlı şəxs həmin qızla həqiqətən evlənmək istəyir və xanım da onunla evlənməyə razıdır, amma valideynlər narazıdır, razılıq vermirlər. Bu halda qızı zorla avtomobilə oturtmaq əvəzinə, birlikdə nikah şöbəsinə gedib rəsmi qaydada nikaha daxil ola bilərdilər və bundan sonra da valideynlərinə xəbər verərdilər. Qızı zorla maşına oturda bilir, amma qanuni şəkildə nikaha daxil olmaq "ağlına gəlmir"?! Gənc qızı maşına zorla oturtmaq o deməkdir ki, burada zorakılıq faktı var. Qız, görünür razı deyilmiş həmin şəxslə evlənməyə. Ona görə də qaçırıblar. Bu, birbaşa adam oğurluğudur. Adam oğurluğunda cinayət məsuliyyəti o zaman ləğv edilir ki, qaçırılan şəxs öz razılığı ilə getdiyini, qarşı tərəfdən şikayətçi olmadığını rəsmi şəkildə bildirir. Bu halda hətta valideynlər cinayət işinin açılmasında, qızın evə qaytarılmasında israr etsələr də, hüquq yetkinlik yaşına çatmış şəxsin tərəfindədir. İstisnasız cinayət məsuliyyətinə cəlbetmə yalnız yetkinlik yaşına çatmayanlarla bağlı və əlbəttə ki, qaçırıldığını təsdiqləyərək iradəsi xaricində qaçırılma təsdiqləndikdə baş verir.

**M.Zeynalova qeyd etdi ki, qız qaçırılmasının birmənalı şəkildə əleyhinədir:**

- Dəfələrlə şahidi olmuşuq ki, bu cür hallar baş verdikdən sonra rəsmi nikaha daxil olmurlar. Bu isə qadın üçün asılılıq yaradır. Ayrılma zamanı da qadına əmlakdan heç bir pay düşmür. Ona yaşayış sahəsi də verilmir. Rəsmi nikah tərəflərin mübahisələrinin həllində vacib amildir. Nikah bağlamamış cütlüklərin övladları da problemlə qarşılaşır. Şəxsiyyət vəsiqəsinin alınmasında, soyad məsələsində problemlər ortaya çıxır. Nikaha daxil olmadan qız qaçırmaq aşkar şəkildə zorakılıqdır. Əgər bir insanın evlənmək istəyirsə, evlənməkdə qərarlıdırsa, daha niyə qaçırır? Əvvəlcə nikah bağlasın, sonra hara istəyir aparsın.

**Məlahət Rzayeva**

# Ölümə tərk edilmiş körpə



## Bəlkə də uşaqların qadından alınıb dövlət himayəsinə verilməsi daha düzgün olar

**Körpəni küçəyə atanın kimliyi müəyyən edilib və barəsində cinayət işi açılıb. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətinin məlumatında bildirilir. Qeyd edilir ki, yeni doğulan körpənin asfaltın üstünə atılması ilə bağlı yanvarın 30-da Cinayət Məcəlləsinin 121-ci (ananın yeni doğduğu uşağı qəsdən öldürməsi) maddəsilə Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanıb. Keçirilmiş istintaq tədbirləri ilə üzərindəki barkodlar əsasında həmin torbaların Abşeron rayon sakini Rasim Qasımova (ad və soyad şərtidir) məxsus olması, ekspertizalar nəticəsində isə mərhumun valideynlərinin Rasim Qasımov və Cəmilə Qasımova (ad və soyad şərtidir) olması müəyyən edilib.**

Cəmilə Qasımova yanvarın 31-də şübhəli şəxs qismində tanınıb, ailə vəziyyəti və 4 azyaşlı uşağının olması nəzərə alınmaqla cəmiyyətdən tam təcrid edilməyərək barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib. Xatırladaq ki, körpənin meyiti Abşeron rayonunun Masazır qəsəbəsində alfaltın üzərində aşkarlanmışdı. Goranboy rayonunda da bir neçə gün əvvəl eyni hadisə baş verib. Goranboy şəhəri, Aşıq Hüseyn Cavad küçəsində, 35Kv-lıq Goranboy yarımstansiyasının yaxınlığında yeni doğulmuş qız uşağının meyiti sellofana bükülmüş vəziyyətdə tapılıb. Onun öldükdən sonra sellofana bükülüb oraya atılması və ya sonradan ölməsi istintaq zamanı müəyyənləşəcək. Bu faktla bağlı da hazırda araşdırma aparılır.

Baş vermiş bu qandonduran hadisələrlə bağlı Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə sosial şəbəkədə paylaşım edərək bunları yazıb: ”18 yanvar tarixində doğulmuş bir uşaq vardı. Masazırda asfalta tullamışdılar, ölmüşdü uşaq. Anasını polis tapıb. 1999-cu il təvəllüddür. Həbs olunacaq? Məhkəmə hökm oxuyacaq? Ona Allahdan vicdan arzulayıram ki, gecə-gündüz əzab çəksin!!! Onu hamilə edənə də həmçinin. O uşağın həsrətində olan neçə-neçə ailə var. Təəssüf!..”

Körpəsini küçəyə atan qadına qəzəblənən sosial şəbəkə istifadəçilərindən bəziləri bu cür qadınların sterilizasiya edilməsini, məsuliyyətsiz kişilərinsə axtalanmasını məsləhət görürlər. Bu əsasla ki, baş vermiş hadisədə günahkar təkcə qadın deyil, həm də kişidir. Bir çox hallarda kişilər məsuliyyətdən yayınır, övlad istəmədiklərini, doğulacaq körpəyə sahib çıxmayacaqlarını bildirir, sonra da məhz bu cür davranırlar. Kişi münasibətdə olduğu qadına doğulacaq körpələrinə sahib çıxacağını, atalıq vəzifəsini yerinə yetirəcəyini bildirsə, körpənin dünyaya gəlməsinə razı olduğunu, onu sevəcəyini söyləsə, qadın körpədən imtina etməz. Bəziləri isə bu fikirdədir ki, qadında analıq hissləri ölüb, yoxdursa, o, istənilən halda körpəsinə sahib çıxmayacaq. Xanımlardan biri isə belə qeyd edib:

- 23 yaşı var, iyirmi üç! Uşaq da deyil deyəsən anlamır. Mənim 23 yaşım olanda, doğum evində dedilər, uşaq sarılıqdır, reanimasiya şöbəsinin qarşısında səhərə qədər ağlamışdım, içəri, uşağın yanına buraxmırdılar. İnsan - ana övladını necə küçəyə ata bilir axı?! Bunun üçün görəsən, insanda hansı hüceyrələr, hansı hormonlar ”stok” verməlidir? Sonra da biz təəcüblənirik ki, niyə adamlar iti, pişiyi öldürür, onlara işgəncə verir. Uşağı küçəyə atanlardan hər cür alçaqlıq, qəddarlıq gözləmək olar.

### *Amma ilk növbədə psixoloji analiz aparılmalı, qadının ruh halının necəliyi müəyyənləşməlidir*

**Psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, istintaq aparılması, cinayət işinin açılması, məhkəmə, cəza, bunlar hüquqi prosedurlardır və icra edilməlidir. Amma icrası mütləq olan başqa prosedur da var:**

- Bu qadının psixoloji durumu mütləq yoxlanmalıdır. Baş Prokurorluğun yaydığı məlumatda qeyd edilir ki, qadının 4 azyaşlı uşağı var. Bir halda ki, bu qadın yeni doğulmuş körpəsini ölümün ağuşuna atır, onun digər övladlarına qarşı da eyni hərəkəti etməyəcəyinə kim zəmanət verir? 1, ya 5. Övlad övladdır. Bir körpəsiylə amansızcasına davranan qadın digərlərinə qarşı da eyni hərəkəti edə, eyni cür davrana bilər. Bu qadının o uşaqlara normal qulluq göstərdiyi, doğru-düzgün tərbiyə verə biləcəyi də sual altındadır. Qadın insan ticarətinə də qurşana bilər. Satar övladlarını. Mənəviyyatsız bir adam övladlarını necə bir ruh halında, hansı psixoloji vəziyyətdə yetişdirir, bu, mütləq öyrənilməlidir. Belə bir qadının yetişdirdiyi uşaqlar sabah cəmiyyətə hansı xeyiri verəcək? Bunlar vacib məsələlərdir və ona görə də qadın psixoanalizdən keçirilməlidir. Həmçinin onun himayəsində olan uşaqlar da. Bəlkə də uşaqların qadından alınıb dövlət himayəsinə verilməsi daha düzgün olar. Amma ilk növbədə psixoloji analiz aparılmalı, qadının ruh halının necəliyi müəyyənləşməlidir.

**F.Mehmanqızı da ölümə tərk edilmiş körpənin bioloji atasının da cinayət məsuliyyətinə cəlb edilməli olduğunu dedi:**

- Ataya da cinayət işi açılmalıdır. Hələ biz bilmirik, küçəyə atılmış körpənin atası kimliyi müəyyənləşmiş o şəxsdirmi, yoxsa o, qadınla sadəcə münasibətdə olmuş adamdır. Onlar cinayəti əlbir olaraqmı törədiblər. Bunlar hamısı şübhəsiz ki, istintaq zamanı müəyyənləşəcək. Körpəni küçəyə atanlar, nəsə ”bir səbəb” söyləməyə cəhd edəcək, min cür ”bəhanə” gətirəcəklər. Lakin heç bir səbəb, heç bir bəhanə körpənin ölümə tərk edilməsinə bəraət ola bilməz. Müharibə şəraitində körpələrini itirən analar illərlə, bəlkə də ömürlərinin sonunadək onları axtarıb. Günümüzdə nə qədər faciələr, qəzalar, təbii fəlakətlər baş verir. İnsanlar zəlzələ dağıntıları altında qalan körpələri xilas etməyə can atır. Bir körpə xilas olduqda, bunu böyük bir qurtuluş kimi şükranlıqla qarşılayırlar. Kimisi isə bətnində gəzdirdiyi körpəni dünyaya gətirib, ölümün ağzına atır. İstəmirsən bu uşağı, ver dövlətə. Dövlət onun üçün əsl ana, əsl ata olardı. Hesab edirəm ki, cəmiyyətdə bu şəkildə ən alçaq davranışlar göstərən şəxslər ağır formada cəzalanmalıdırlar ki, digərlərinə də görk olsun. Bu zaman cəmiyyətdə ədalət bərqərar olar.

**Məlahət Rzayeva**

**Keçmiş olsun, Türkiyə!**

Türkiyədə yaşanan zəlzələ səbəbilə böyük üzüntü içindəyik. Təcili əlaqə ehtiyaclarını qarşılaya bilmələri üçün zəlzələ bölgəsindəki abunəçilərimiz ödənişsiz danışıq dəqiqələri və internetlə təmin olunur.

nar

## "Nar" Türkiyədə olan abunəçilərinin balansına internet və danışıq dəqiqələri əlavə edir

**”Nar” Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar olaraq, bu ölkədə olan abunəçilərinə yaxınları ilə davamlı əlaqə saxlamaları üçün danışıq dəqiqələri və internet trafiki təqdim edir.**

Əlavə balans haqqında məlumat abunəçilərə SMS vasitəsilə bildiriləcək.

*”Nar” zəlzələdə həyatını itirənlərə Tanrıdan rəhmət, xəsarət alanlara şəfa diləyir.*

## Çoxsaylı suallar ünvanlanır

Fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri azadolmalar siyahısında deyil



**”Fevralın 1-dən etibarən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin vergiyə yenidən cəlb olunması ilə bağlı çoxsaylı suallar ünvanlanır”. Bunu millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri azadolmalar siyahısında deyil:**

”Kartlarda olan vəsaitlər ilə bağlı iki hal mümkündür. Əgər kartda olan vəsait gəlir gətirmirsə (məsələn, pulun saxlandığı debet və kredit plastik kartlar) o halda kartda olan pul vergiyə cəlb olunmur. Əgər kartda olan vəsaitə faiz hesablanırsa və kart sahibinə aylıq və ya illik gəlir gətirirsə, o halda həmin qazanc vergiyə cəlb olunacaq. Məsələn, kartda 5 min manat pul var. Həmin vəsaitə illik 7 faiz gəlir hesablanır və bu məbləğə 400 manat əlavə olunur. Bu halda kart sahibinin ödədiyi illik vergi 40 manat olur. Kartda olan əsas məbləğin vergiyə cəlb olunması nəzərdə tutulmur. Yalnız faiz gəliri vergiyə cəlb olunur. Bir daha qeyd edirəm, kartınız sizə faiz gəliri gətirmirsə, heç bir halda sizdən vergi ödəmək tələb oluna bilməz”.

**İsmayıl**



## Təhsil tələbə kreditindən faydalanan tələbələr arasında qadınlar üstünlük təşkil edir

**Təhsil tələbə kreditindən faydalanan tələbələr arasında qadınlar üstünlük təşkil edir.**

Azərtac xəbər verir ki, bunu Təhsil Tələbə Krediti Fondunun HR Forumunda İdarə Heyətinin sədri Araz Paşayev deyib.

Onun sözlərinə görə, bu günədək TTK almaq üçün 18 min 269 nəfər müraciət edib: ”Müraciət edənlər arasında 9827 nəfər qadın, 8441 nəfər isə kişi yer alır. Ümumilikdə 12 min 467 nəfərin müraciəti rəsmiləşdirilib. Onlardan 4643 nəfərin müraciəti sosial TTK, 7824 nəfərin müraciəti isə standart TTK olaraq qeydə alınıb”.

Araz Paşayev əlavə edib ki, 2022-2023-cü tədris ilinin payız semestrində ən çox TTK alan ilk üç universitet sırasında Azərbaycan Dövlət İqtisad Universiteti, Gəncə Dövlət Universiteti və Bakı Dövlət Universiteti yer alır.

# BNA ikinci cəhdə əl atdı

## Nəqliyyat trafikinin intellektual tənzimlənməsi üçün real nəticələr əldə edilməyib




**”Bakı Nəqliyyat Agentliyi böyük tender elan edib. Qurum ”İctimai Nəqliyyatın İntellektual İdarə edilməsi” sistemi üçün avtobuslarda quraşdırılmış İKT avadanlıqlarının, köməkçi qurğuların və kommunikasiya xətlərinin fasiləsiz və dayanıqlı fəaliyyətini təmin edən şirkət axtarır”.**

Bunu ”Şərq”ə açıqlamasında Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Onun sözlərinə görə, bu, nəqliyyat sektorunun intellektual idarə edilməsi sisteminin yaradılması sahəsində hökumətin 2-ci cəhdidir: ”Birinci cəhdi isə uğursuz olub. Xatırladıram ki, ilk dəfə Nəqliyyatın İntellektual İdarə edilməsi Sistemi, yəni NİİS 1.0 on illər öncə, sabiq nazir Ziya Məmmədovun rəhbərliyi ilə hazırlanıb. Xatırlayıram ki, bu məqsədlə Cənubi Koreya şirkətinə 110 milyondan çox vəsait ödənilmişdi.

Lakin layihə müxtəlif səbəblərdən, xüsusən məsuliyyətsizlik, səmərəsizlik və qeyri-peşəkar yanaşma səbəbindən uğursuz olub, iflasa uğrayıb və qarşıya qoyulan vəzifələri icra edə bilməyib.

NİİS1.0 Azərbaycanın ən çox ictimai vəsaitlər sərf olunan, lakin ən uğursuz olan İT layihələrindən hesab olunub.

Sonradan NİİS1.0-ı dirçəltməyə cəhdlər olub, BNA-nın balansına verilib, müəyyən irəliləyişlər olub, hətta mövcud olmayan bir layihəni dirçəltmək üçün SİNAM şirkətinə yenidən 20 milyon manat vəsait ödənilib.

Lakin nəqliyyat trafikinin intellektual tənzimlənməsi üçün real nəticələr əldə edilməyib.

Xatırlayıram ki, Cənubi Koreya şirkəti NİİS1.0-ın yenilənməsi üçün zəruri olan ilkin kodları da BNA-ya verməkdən imtina etmişdi.

Özünü doğrultmayan, iflas olan NİİS1.0və NİİM Prezidentin fərmanı ilə bir il bundan öncə BNA-dan alınaraq DİN-ə təhvil verilib.

Hazırda bildiyim qədər DİN-in İKT idarəsi DYP resurslarından, xarici və yerli şirkətlərin köməyindən istifadə etməklə bu sistemi yenidən qurmaq üzərində çalışır.

BNA-nın yeni NİİS2.0 layihəsini kimin reallaşdıracağı və necə olacağını isə zaman göstərəcək”.

**Şəymən**

## Şvartsenegger qəza törətdi



**Məşhur amerikalı aktyor Arnold Svartsnegger avtomobil qəzasına düşüb.**

Bakupost.az xəbər verir ki, bu barədə TMZ məlumat yayıb.

Nəşrin məlumatına görə, 75 yaşlı aktyor yolda olarkən velosipedçi ”qəfildən onun zolağına çıxıb və qəza baş verib”.

Zərərçəkən şəxs xəstəxanadadır, həyatı üçün təhlükə yoxdur. Şvartsnegger onun velosipedinin də qayğısına qalıb. Velosiped təmirə göndərilib.

Hüquq-mühafizə orqanlarındakı mənbələr TMZ-yə aktyorun günahsız olduğunu bildirib. Çünki o, bu vəziyyətdə toqquşmadan qaça bilməyib.

# Ştefan Svayqın məşhur əsəri "M Teatrın" səhnəsində



**Müstəqil ”M.Teatr”ın (”Mənim teatrım”) səhnəsində bu dəfə dünya şöhrətli yazıçı Stefan Sveyqin ”Yad qadının məktubu” adlı məşhur novellası əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası keçirilib.**

Yeni tamaşanı səhnələşdirən və quruluşçu rejissoru Xalq artisti Vidadi Həsənov, bəstəkarı Röya Hüseynova, rəssamı Ülkər Əliyeva, rejissor köməkçisi Səbinə Süleymanovadır.

Melodrama janrında hazırlanan tamaşada rolları əməkdar artist İlqar Cahangir, aktyorlar Oksana Rəsulova və Ziya Ağa ifa ediblər.

Məlumat üçün qeyd edək ki, ”Yad qadının məktubu” Ştefan Svayqın ən məşhur novellalarından biridir.Və dünyanın bir çox ölkələrində tərcümə olunub.

Əsərdə məşhur romançı R. tanımadığı, bəlkə də xatırlamadığı yad bir qadından məktub alır. Məktubu oxuduqca məlum olur ki, bu qadın bütün ömrü boyu yalnız onu sevib. Qadın həyatda R. ilə qarşılaşdığı bütün məqamları xırdalığına kimi təsvir edir.

Premyeradan sonra tamaşaçılar yaradıcı heyətlə səhnəarxası görüş keçirib, onlarla xoş təəssüratlarını bölüşüblər.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
”Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 376

ŞƏRQ 7 fevral 2023-cü il № 22 (5783) (çərşənbə axşamı) Son səhifə




## "Lütfən, yardım edin!"

### Volkan Demirel canlı yayımda ağladı

**Türkiyənin "Hatayspor" klubunun baş məşqçisi, Türkiyə milli komandasının keçmiş qolkiperi Volkan Demirel ölkədə baş verən dağıdıcı zəlzələ ilə əlaqədar insanlardan yardım istəyib.**

Volkan Demirel özünün "TikTok" hesabında canlı yayım açaraq deyib:

"Dağıntı çox böyükdür, insanlar çox çarəsizdirlər. Lütfən, yardım edin".

*Qeyd edək ki, bu gecə Türkiyə ərazisində 7,4 maqnitudalı zəlzələ olub. Bildirilir ki, zəlzələnin ocağı Kahramanmaraş şəhərinin Pazarcık rayonu ərazisində 7 km dərinlikdə olub.*

## "Nənəm və bibim binada qalıb"

### Melisa Aslı Pamuk sosial media hesabından kömək istəyib



**Kahramanmaraşda baş verən zəlzələdə nənəsi və bibisi dağıntılar altında qalan aktrisa Melisa Aslı Pamuk sosial media hesabından kömək istəyib.**

Türkiyədə baş verən güclü zəlzələdən sonra 6.4 maqnitudalı afterşok qeydə alınıb.

Təxminən 30 saniyə davam edən və bir çox vilayətdə hiss edilən zəlzələdə bir çox bina dağıldığı halda, dağıntılar altında qalan vətəndaşların xilas edilməsi işləri davam edir. Aktrisa Melisa Aslı Pamuk bibisi və nənəsinin zəlzələdə qapalı qaldığını bildirib.

Tvitter hesabında ailəsinin zəlzələdən sonra binada qapalı qaldığını deyən Melisa Aslı Pamuk, "Nənəm yeriyə bilmir, xəstədir. Bibimlə birlikdə binada qapalı qalıblar. Mənzildə vəziyyət necədir bilmirik", - deyə o paylaşımında qeyd edib.

## Dağıntılar altında qalan qadın Haluk Leventə mesaj yazdı



**Bu gün səhər saatlarında Türkiyədə baş verən zəlzələ zamanı dağıntılar altında qalan qadın müğənni Haluk Leventə mesaj göndərib. Axşam.az xəbər verir ki, ifaçı həmin xanımın şəklini sosial şəbəkə hesabında yayımlayıb. Aysel adlı qadın şəklini paylaşaraq "Məni xilas edin" sözlərini yazıb və ifaçını işarələyib.**

**Haluk isə onun sözlərinə "Əziz Aysel, telefonunuzun enerjisini bitirməyin. Köməyə gəlirlər" reaksiyasını verib. "Ahbap" dərnəyinin rəhbəri olan Levent özünün də yardım üçün əraziyə getdiyini vurğulayıb.**

## Zəlzələ bu şəhəri yer üzündən sildi



**"Suriyanın şimalındakı Harim şəhəri zəlzələ nəticəsində demək olar ki, yer üzündən silinib".**

**Bakupost.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Harimin hakimiyyət nümayəndəsi bildirib.**

***Qeyd edək ki, bu şəhərdə 30 minə yaxın insan yaşayırdı.***

## Türkiyə hökuməti razı olsa...

### İlon Mask yardım məqsədilə "Starlink" peyklərini təklif edib



**"SpaceX" şirkətinin təsisçisi İlon Mask Türkiyədə baş verən zəlzələ ilə bağlı açıqlama verib.**

**O, Türkiyə hökumətinin razılığı ilə "SpaceX" şirkətinin "Starlink" peyklərini Türkiyəyə göndərə biləcəklərini vurğulayıb.**

***Qeyd edək ki, son məlumatlara görə, Türkiyənin müxtəlif şəhərlərində baş verən güclü zəlzələlər nəticəsində ölənlərin sayı 284 nəfərə çatıb, 2323-dən çox yaralı var. Bu barədə ölkənin Fövqəladə Halların İdarə Olunması Agentliyi məlumat yayıb.***

## Tarixi Qaziantep qalasının bir hissəsi zəlzələ nəticəsində uçub



**Fevralın 6-da Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində tarixi Qaziantep qalasına da ciddi ziyan dəyib.**

**Anadolu agentliyi xəbər verir ki, zəlzələnin təsirindən qala divarlarının bir hissəsi və bəzi bürcləri uçub. Qalanın yaxınlığında yerləşən XVII əsrə aid tarixi Şirvani məscidinin də qübbəsi və divarı çöküb.**

**Qaziantep qalası 2000-ci illərin əvvəllərində təmir olunmuşdu.**



# Alimlər xəbərdarlıq etdi

## Kosmosa göndərilən "zir-zibil" görüntünü çətinləşdirir

**Alimlər ciddi şəkildə xəbərdarlıq edir ki, kosmosa göndərilən hər cür aparat, süni peyklər və sair "zir-zibil" kainatda baş verənləri dəqiqliyi ilə izləməyə imkan vermir. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, alimlər kosmosun süni peyklərlə dolub-daşması nəticəsi olaraq hazırkı onilliyin sonunda fəzanı müşahidə etmək imkanları sıfıra enə bilər.**

Bu səbəbdən də kainatda Yer planetindən savayı daha hansısa planetdə həyatın, bizdən fərqli varlıqların olub-olmamasını müəyyənləşdirmək çətinləşəcək. Hazırda Yer planeti çevrəsində 8 mindən artıq peyk fırlanmaqdadır. 2019-cu ildən bu yana peyklərin sayı 4 dəfə artıb. Və bu sayın getdikcə artacağı təxmin edilir. Qarşıdakı illərdə 400 min peykin kosmosa ötürüləcəyi, sadəcə "SpaceX" və "Starlink" internet ulduz komandası üçün daha 44 min peyk kosmosa göndəriləcək. Astroloqlar bu durumun onların işini çətinləşdirdiyini deyir. Peyklər durmadan, fasiləsiz olaraq teleskopların optik əhatəsi önündə fırlanır və parlaq işıq yaradaraq görmə-müşahidəni əngəlləyirlər. İnternet peykləri radio teleskopların da işini əngəlləyir. Kaliforniya Universitetinin fizika və astronomiya üzrə professor Toni Tison "2030-cu ildə qaranlıq bir yerə çəkilib səmaya baxdığınızda dəhşətli bir mənzərə ilə qarşılaşacaqsınız. Səmada ulduzları deyil, ora-bura gəzişən peykləri görəcəksiniz. Səma davamlı hərəkət halında olan peyklərlə dolub-daşacaq. Bu, böyük bir fəlakət olacaq", söyləyib. Yarana biləcək təhlükəli vəziyyətin aradan qaldırılması məqsədilə Böyük Britaniyanın Kral Astronomiya Topluluğu və Kosmos Agentliyi "Qaranlıq və səssis səma" adlı konfrans keçirib. RAS sədri müavininin yardımçısı Robert Massey, kosmosdan istifadədə dünya dövlətlərinin bir-birini ötməyə çalışdığını bildirərək bunu xaotik çarpışma adlandırıb: "Onilliyin sonunda planetimizin ətrafında yüz minlərlə peyk görəcəyimiz ehtimalı böyükdür. Bu bizə kosmosdan gələn siqnalları əldə etməyə mane olacaq".



**Məlahət**



# Niyə telefona "alo" deyə cavab veririk?

## Tarixi XVI əsrə gedib çıxır

**Telefonu götürəndə salam kimi "alo" deyirik. Ümumbəşəri şəkildə işlənən bu söz qədim zamanlarda müxtəlif mənalar daşıyırdı. Vaxt keçdikcə formasını dəyişən söz telefonun ixtiraçısı Tomas Edisonun sayəsində bu qədər populyarlaşdı.**

Bu gün zəng edənə "alo" deyərək salam veririk, lakin o söz həmişə eyni məqsədlə işlədilməyib. Bu söz XVI əsrdə "dayan" mənasında "halo" kimi istifadə edilib.

Sonrakı bir neçə əsrdə bu söz kiminsə diqqətini cəlb etmək üçün istifadə olunurdu (məsələn, uzaqdan kiməsə "hey!" qışqırmaq). Bir müddət bu söz hətta itlərə göstəriş vermək üçün də istifadə olunurdu (bir növ atların hərəkət etməsi üçün "deh" kimi).

Lakin 19-cu əsrdə telefonun yayılması ilə hər şey dəyişdi. Telefonun ixtiraçısı kimi tanınan Tomas Edison telefondan istifadə edən insanlar üçün söz axtarır və bunun "halo" olacağına qərar verərək onu ətrafındakı insanlara təklif edir.

Buradakı "halo" yenə bildiyimiz "alo" deyil. O vaxtlar telefon xətləri o qədər də təkmil deyildi, təbii ki, xətlərdə problemlər var idi. Zəng edənin diqqətini cəlb etmək üçün "halo" sözü işlədilirdi; yəni "orada kimsə varmı?" kimi.

Edisonun təsiri ilə o dövrdə istehsal olunan telefonların istifadə kitabçalarında kiməsə zəng etdikdə qarşı tərəfə "halo" deməsi tövsiyə olunurdu.

Zaman keçdikcə telefon xətləri yaxşılaşdı və "halo" sözü zəng edənə deyil, zəngi qəbul edən şəxsə qarşı salamlama sözü kimi istifadə olunmağa başladı.

**Turan**

## Qadın burun əməliyyatından ayılmadı



**İstanbulun Beylikdüzündəki tibb mərkəzində burun əməliyyatından sonra qadın dünyasını dəyişib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Seher K. (28) burun əməliyyatı etmək üçün səhər saatlarında Yakuplu Mahallesi Osmanqazi küçəsində yerləşən tibb mərkəzinə gedib.

Ümumi anesteziya ilə əməliyyat olunan Seher K, sonradan bütün müdaxilələrə baxmayaraq oyandırıla bilməyib. Yaxınlıqdakı başqa xəstəxanaya köçürülən Seher K-nin öldüyü müəyyən edilib.

Hadisədən sonra xəstəxanaya gələn yaxınları əsəb böhranı keçirib.

Hadisə ilə bağlı araşdırmalara başlanılıb.

**Turan**

## Möhlət hüququ ləğv olunur

### Gürcüstanda din xadimləri də həqiqi hərbi xidmətə cəlb olunacaqlar



**Gürcüstanda din xadimləri də həqiqi hərbi xidmətə cəlb olunacaqlar. Onların məcburi hərbi xidmətdən möhlət hüququ ləğv olunur.**

Azərtac xəbər verir ki, bununla əlaqədar hökumət tərəfindən hazırlanmış qanun layihəsi artıq parlamentə təqdim edilib.

Gürcüstanın Müdafiə Məcəlləsinə təklif olunan yeni dəyişiklikdə deyilir ki, din xadimlərinin məcburi hərbi xidmətdən möhlət hüququ dövlətin müdafiə qabiliyyətini artırmaq prinsipləri ilə ziddiyyət təşkil edir. Effektiv müdafiəni planlaşdırarkən "ümumi müdafiə" prinsipi və yanaşması nəzərə alınmalıdır. Bu da ölkə ərazisində müdafiəni təmin etmək üçün milli resursların bütün potensialını səfərbər etməyə hazırlığı və qabiliyyətini, o cümlədən ehtiyatın tam işə salınmasını nəzərdə tutur.

Hökumətin parlamentə təqdim etdiyi arayışda bildirilir ki, ölkənin geosiyasi mövqeyi və total müdafiə prinsipi nəzərə alınaraq yeni ehtiyat sistemi tətbiq edilir. Bu sistemin mühüm amillərindən biri hərbi hazırlıq keçmiş şəxslərin, həm də xüsusi qeyri-hərbi bacarıqlara malik olan şəxslərin ehtiyata cəlb olunmasıdır. Bu da böhran şəraitində ehtiyatın idarə olunması proseslərini təkmilləşdirəcək.

## Aktrisanın anası zəlzələdən sonra itkin düşüb



**Türkiyəli aktrisa Başak Gümülcinelioğlunun anası Türkiyədə baş verən zəlzələdən sonra itkin düşüb.**

Axşam.az xəbər verir ki, bu barədə aktrisa sosial media hesabında yazıb. O, Hatay vilayətinin Antakya bölgəsində qalan anasından xəbər ala bilmədiyini vurğulayıb:

"Hatayın Antakya bölgəsində, Sümerler məhəlləmizdə anamız var, xəbər ala bilmirik. Görən və ya eşidən varsa, xahiş edirəm mənə xəbər versin".

*Xatırladaq ki, bundan əvvəl türkiyəli aktrisa Melisa Aslı Pamuk da Kahramanmaraşda ailəsinin dağıntılar arasında qaldığını açıqlamışdı. Qeyd edək ki, Başak sonuncu dəfə "Yarqı" serialında rol alıb. Onu da qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözlərinə görə, zəlzələ nəticəsində 912 nəfər həlak olub, 5385 nəfər xəsarət alıb.*

## Türkiyədəki zəlzələdə Akkuyu AES zədələnməyib



**Türkiyədə baş vermiş zəlzələ zamanı "Akkuyu" AES-də dağıntı baş verməyib.**

APA xəbər verir ki, bu barədə Rusiyanın nüvə enerjisi üzrə dövlət korporasiyası "Rosatom" məlumat yayıb.

Bildirib ki, yoxlamalar aparılıb və "Akkuyu" AES-ə hər hansı zərərin dəyməsi barədə məlumat yoxdur.